RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 175 (9342) 18 AVQUST 2023-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR







# Ayıblı ayıbını bilsə...

## Və ya sonrakı peşmançılıq fayda verməyəcək

Adı rüşvətxorluqda və korrupsiyada daim hallanan Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Okampo da ermənilərin borcundan çıxmaq üçün saxta və yalançı bir hesabat hazırlayıb.

Əgər bunlar həqiqətən ədalətli, beynəlxalq hüquqa hörmət edən, belə humanist və insanpərvərdilərsə, onda otuz il haradaydılar?!

İndi hansı üzlə haqq-ədalətdən dəm vururlar?!

Guya biz bilmirik ki, hərəsi öz marağını təmin etmək üçün dəridən-qabıqdan çıxır?!

- Torpağın da yiyəsi bizik!
- Sərhədin və onun qapısının da sahibi bizik!
- Humanitar yüklərin nə vaxt və hansı yol ilə buraxılması məsələsini də həll edən bizik!

Heç biz öz marağımızı qoyub, sizin məkrli planlarınızın reallaşmasına imkan verərik?

O, sizin xam xəyalınızdır!

- Qərbi azərbaycanlıların haqqını tanımaq istəməyənlər ermənilərin Qarabağdan köçüb gedə biləcəklərindən əndişəyə düşüblər!
- Üçtərəfli Bəyanatın bəndlərinin icrasını qulaqardına vuraraq Zəngəzur dəhlizinin açılmasına əngəl törədənlər Laçın yolu ilə sərbəst, kefləri istəyən kimi gedib-gəlməyə can atırlar!
- Otuz il BMT TŞ-nin 4 qətnaməsini saya salmayan Hayastan indi BMT-də xüsusi iclas çağırılaraq Azərbaycanın əleyhinə yeni qətnamə qəbul etdirmək istəyirdi!

**Azərbaycan Prezidenti İlham Əliyev sözünü bir dəfə deyir:**

- Laçın yolundan yalnız Azərbaycanın nəzarəti və icazəsi ilə humanitar məqsədlə istifadə oluna bilər!
- Ermənistandan Xankəndiyə yardım maşınları yalnız Ağdam-Xankəndi yolu ilə keçə bilər!
- Qarabağda baş verən bütün proseslər Azərbaycanın daxili işidir və Azərbaycan onu kiminləsə məsləhətləşmək niyyətində deyil!
- Azərbaycan özünün erməniəsilli vətəndaşları ilə birbaşa, vasitəçilərsiz danışacaqdır!

→ 3



# İlham Əliyev Kəlbəcəri yenidən qurur

Prezident bununla bağlı 80 milyon manat vəsait ayırıb

→ 2

# İFLAS!

## Şillə Paşinyandan daha çox Makrona dəydi

Çox ümidli və həvəsli idilər ki, dünyanın ən böyük siyasi təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurası Azərbaycana qarşı qətnamə qəbul edəcək, sanksiya verəcək, bununla da "Laçın dəhlizi" dedikləri Laçın yolundakı sərhəd-buraxılış məntəqəsi ləğv ediləcək və ermənilər Qarabağda "at oynatmağa" başlayacaqlar. Amma sən saydığını say, gör, BMT nə deyir?!

Bu ali qurumun rəhbərliyi də, daimi üzvləri də yaxşı bilirlər ki, 30 il Azərbaycana qarşı ədalətsizlik ediblər. Başqa dövlətlərin xeyrinə qəbul etdikləri qətnamənin mürəkkəbi qurumamış icrasını yerinə yetirdikləri halda, Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasına dair 4 qətnaməsi illərlə arxivdə qaldı.

→ 4

# Puç olan "ümidlər"

## BMT Təhlükəsizlik Şurası bu dəfə də Ermənistanın əsassız iddialarının üstündən xətt çəkdi

İlk növbədə, Prezident İlham Əliyevin beynəlxalq hüququn prinsiplərinə və BMT Nizamnaməsinə əsaslanan direktivlərini rəhbər tutan Azərbaycan nümayəndəsinin tezisləri BMT TŞ üzvlərini fakt qarşısında qoydu. Daimi və qeyri-daimi üzvlər ya BMT Nizamnaməsinin məqsədləri, prinsipləri, o cümlədən sənədin ikinci maddəsinin dördüncü bəndində ehtiva olunan, habelə beynəlxalq hüququn ümumtanınmış prinsipləri kimi təsbit olunmuş ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini, həmçinin dövlətlərin suverenliyi anlayışını görməzdən gələrək İrəvanın iddialarını müdafiə etməli, ya da hüququn aliliyini rəhbər tutmalı idilər.

→ 4

# ABŞ-nin ikiüzlü siyasətinin çoxüzlü məkri

## Ağ Evin hədəfində Azərbaycanın müstəqil siyasətidir

**BMT Təhlükəsizlik Şurasının Ermənistanın uydurma iddialarına rədd cavabını verməsi bir daha Azərbaycanın haqlı mövqedə olduğunu təsdiqlədi. Bu, sözün həqiqi mənasında, İlham Əliyev diplomatiyasının növbəti təntənəsi, Hayastanın isə daha bir fiaskosudur.**



Təhlükəsizlik Şurasının iclası bir daha təsdiq etdi ki, Azərbaycan Vətən müharibəsindəki şanlı zəfərindən sonra regionda yeni reallıqlar yaradıb və bu düzəni pozmaq, praktik olaraq, mümkünsüzdür. İndi diktə edən tərəf Azərbaycandır.

BMT Təhlükəsizlik Şurasının bu iclasında tərs şillə təkcə Ermənistana dəymədi. Azərbaycana qarşı hər zaman qərəzli mövqedə olan və BMT-nin ölkəmizin əleyhinə hansısa qətnamə qəbul etməsi üçün dəridən-qabıqdan çıxan Hayastanın böyük "bacısı" Fransa ilə həmin iclasda yenə də ikiüzlü, qeyri-səmimi mövqe nümayiş etdirən Amerika Birləşmiş Ştatlarının əsl mahiyyətini bir daha nümayiş etdirdi. İclasda ABŞ nümayəndəsinin reallıqdan uzaq, anlaşılmaz və ənənəvi ikili mövqe nümayiş etdirməsi, əslində, Ağ Evin yalnız ölkəmizə qarşı deyil, ümumilikdə ədalətə qarşı çıxmasının növbəti rəzil göstəricisi hesab edilməlidir.

### Vaşinqtonun dəyişməz simasızlığı

Fransanı haradasa başa düşmək olar. Çünki bu ölkə hər zaman ermənipərəst mövqeyini gizlətməyib və Azərbaycana qarşı istənilən çirkin kampaniyanın təşkilində iştirak edib. Lakin heç vaxt istəyinə nail ola bilməyib.

Amma ABŞ-nin məhz sözügedən məsələdə sərgilədiyi mövqe heç başa düşülən deyil. Çünki ABŞ Prezidenti Co Baydenin son iki ildə İlham Əliyevə göndərdiyi məktublardakı fikirləri, Ağ Evin dövlət katibi Blinkenin 7 ayda 6 dəfə İlham Əliyevlə apardığı telefon danışıqlarında səsləndirdiyi sözlərlə bu ölkənin BMT-də sərgilədiyi mövqe tamamilə bir-birini təkzib edir.

→ 5

# Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanat yayıb

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi avqustun 16-da BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanat yayıb. AZƏRTAC bəyanatı təqdim edir.**

Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Ermənistanın sözügedən ali orqanı bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir.

Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini, nəhayət ki, anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır.

→ 5

# Beynəlxaq təşkilatlar erməni vəhşiliklərinə göz yumurlar

Görəsən, bu cür söz yığnağına imza atan sərsəmlər bilirlərmi və ya ən azı məlumatları varmı ki, Ermənistan 1990-cı ildən Naxçıvanı blokadada saxlayır. Ermənistandan keçməklə Naxçıvana gedən bütün kommunikasiya vasitələri onlar tərəfindən məhv edilib. Üçtərəfli Bəyanatla öz üzərinə öhdəlik götürən Nikol Paşinyan inadla, müxtəlif bəhanələrlə Naxçıvanın blokadasını aradan qaldırmaqdan hələ də imtina edir. Qarabağda, guya, "humanitar fəlakət" yaşandığını iddia edən Ermənistan hələ də Qarabağda 15 min qoşun saxlamaqdadır.

Azərbaycan Qarabağda yaşayan ermənilərə irihəcmli daşımalar üçün Ağdam-Xankəndi yolunu təklif edib və sözünün üstündə də durub. Bu yolu beynəlxalq normalara uyğun olaraq təmir də edir. Daşımaları həyata keçirənlərin təhlükəsizliyinə təminat verir. Eyni zamanda Laçın yolu da Qarabağın Ermənistana gedən və ya əksinə hərəkət edən insanlarının üzünə açıqdır. Hər gün BQXK-nin avtomobilləri hər iki istiqamətə erməni daşımaqla məşğuldurlar.

Soruşmaq lazımdır: Ermənistan bu dəqiqə blokadada olan Naxçıvana gedib-gəlmək üçün hansı marşrutu təklif edir. Son dəfə BQXK öz avtomobilləri ilə Ermənistandan keçməklə Naxçıvandan neçə nəfəri Azərbaycana gətirib?

→ 4

# İrəvanda təşviş və xof artıb:

## "Ararat Mirzoyan hansı üzlə BMT-dən geri qayıdır?"

Siyasi ekspert Tatev Ayrapetyan qeyd edib ki, BMT TŞ-nin iclasında müzakirə və əksər çıxışlar Qarabağdakı vəziyyətin intensivliyinə uyğun deyildi. Çıxışların çoxu təkrar idi: "Bəzi ölkələrin nümayəndələri Laçından başqa marşrutlardan istifadə etməyə çağırıb, bəziləri isə bunun üçün Ağdam yolunu göstəriblər. Hayastan tərəfinin nümayəndələri onların mandatlarının olmadığını deyib. Bu mövzu ilə bağlı İrəvan aydın əks-arqumentlər təqdim edə bilmir. Azərbaycan tərəfi isə çox ustalıqla bu məsələni tez bir zamanda gündəmə gətirib. Xülasə olaraq deyə bilərəm ki, real fəaliyyətdən söhbət getməyənə qədər Bakı beynəlxalq zənglərə qulaq asmayacaq və dəhlizin açılışına getməyəcək".

Saak Baqdasaryan adlı birinin şərhi çoxlu bəyənmələrlə yadda qalıb: "Dostlar, bilmirəm fikir verdiniz ya yox, bizim nümayəndə danışanda zalda hamını əsnəmək tutmuşdu (gülüş işarəsi). Çətin olsa da, düzünü demək lazımdır. Ararat Mirzoyan Azərbaycanı yaxşı, inandırıcı vura bilmədi. Ancaq fikir verin, Azərbaycan tərəfi danışanda bütün zal diqqətlə ona qulaq asırdı. Çünki ilk dəqiqədən etibarən faktlarla danışdı. Mirzoyanın onun cavabını verməyə cürəti çatmadı. Çünki Paşinyan kimi qorxaqdır. Ancaq gücü ölkəmizdəki kasıb insanlara çatır. Onlar üz qarasıdırlar. Mənim bu şərhimə qeyri-etik ifadələr işlədənlər barəsində şikayət edəcəyəm.

→ 5

# İndoneziya Respublikasının Prezidenti zati-aliləri cənab Coko Vidodoya

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan-İndoneziya münasibətlərinin dostluq məcrasında inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə də Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İndoneziya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2023-cü il*

# Qabon Respublikasının Prezidenti zati-aliləri cənab Ali Bonqo Ondimbaya

Hörmətli cənab Prezident!

Qabon Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, birgə səylərimizlə Azərbaycan-Qabon dostluq əlaqələri daha da inkişaf edəcək, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost Qabon xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 avqust 2023-cü il*

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Azərbaycan Bayrağı" ordeni ilə**

Şirinzadə Firuz Böyükağa oğlu - general-leytenant
Mustafayev İlkin Aydın oğlu - polkovnik-leytenant
Səfərov Elvin Sərraf oğlu - polkovnik-leytenant
Quliyev Anar Sədi oğlu - kapitan

**2-ci dərəcəli "Rəşadət" ordeni ilə**

Yunisli Ziya Rauf oğlu - kapitan

**3-cü dərəcəli "Rəşadət" ordeni ilə**

Hüseynov Naseh İbrahim oğlu - polkovnik
Nağıyev Murad Tofiq oğlu - polkovnik

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

İbrahimov Elçin Zaur oğlu - general-leytenant
Abuzərli Natiq Zahid oğlu - general-mayor

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev Rəsul Rasim oğlu - polkovnik
Nağıyev Məhəmməd Biladon oğlu - polkovnik
Rəhmanov Elşən Sabir oğlu - polkovnik
Abdullayev Anar Arif oğlu - polkovnik-leytenant
Səfiyev Mübariz Məhəmməd oğlu - mayor

**"Vətən uğrunda" medalı ilə**

Dünyamalıyev Ağamirzə Bəhman oğlu - polkovnik
Həbibov Elnur Arif oğlu - polkovnik
Mirzəyev Mirzə Adil oğlu - polkovnik
Baxşıyev Ravil Sabir oğlu - polkovnik-leytenant
Umudov Xəyyam Ehsan oğlu - 2-ci dərəcəli kapitan
Rzayev Emin Salam oğlu - kapitan

**"İgidliyə görə" medalı ilə**

Pirimov Ceyhun Ələkbər oğlu - tibb xidməti leytenantı

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abbasov Aftandil Qabil oğlu - polkovnik-leytenant
Abdullayev Ruslan Mehman oğlu - polkovnik-leytenant
Əkbərov Yusif Mürsəl oğlu - polkovnik-leytenant
Əzimova Gülnar Bəhram qızı - polkovnik-leytenant
Quliyev Elməddin Çingiz oğlu - polkovnik-leytenant
Məmmədli Rəhman Bayram oğlu - polkovnik-leytenant
Nağıyev Yaşar Tofiq oğlu - polkovnik-leytenant
Sadiqov İsmayıl Rəfael oğlu - polkovnik-leytenant
Əliyev Vəfadar Çingiz oğlu - mayor
Lazımzadə Azər Xudaverdi oğlu - mayor
Mirzəyev Elçin Cavanşir oğlu - mayor
Müslümov Elçin Qəşəm oğlu - mayor
Məmmədov Cavid Yusif oğlu - kapitan
Niftullayev Tural Calal oğlu - kapitan
Salahov Rəşad Maarif oğlu - kapitan
Səmədov Etibar İlqar oğlu - kapitan
Əliyev Əlizadə Eyyub oğlu - baş leytenant
Hüseynov Şamxal Əli oğlu - baş leytenant
Qarayev Toğrul Əhməd oğlu - baş leytenant
Quliyev Rəvan Əyar oğlu - baş leytenant
Nəcəfov Samir Əli oğlu - baş leytenant
Ramazanov Elvin Allahverdi oğlu - baş leytenant
Abdullayev Vüsal Fikrət oğlu - baş gizir
Cəlilova Dilşad Həsən qızı - baş gizir
Xanbutayeva Zabitə Firudin qızı - baş gizir
Mikayılova Şəlalə Elman qızı - baş gizir
İsaqzadə İlkin Yasin oğlu - gizir
Zeynalov Məqsəd Əsəd oğlu - kiçik gizir
Mənafov Emil Nazim oğlu - kiçik çavuş
Hüseynov Elnur Azər oğlu - əsgər
Hüseynov Ruslan Vidadi oğlu - əsgər
Novruzlu Nihad Elburus oğlu - əsgər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2023-cü il*

# Kəlbəcər şəhərində tikinti, təmir və bərpa işləri üçün maliyyə vəsaiti ayrılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Kəlbəcər şəhərində tikinti, təmir və bərpa işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə 80,0 (səksən) milyon manat vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2023-cü il*

# B.M.Ələkbərova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Polkovnik Babək Mürsəl oğlu Ələkbərova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2023-cü il*

# Z.A.Zeynalova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Polkovnik Zaur Ağaqardaş oğlu Zeynalova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 avqust 2023-cü il*

# Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında siyasi əlaqələr mükəmməl səviyyədədir

**Xarici işlər naziri Ceyhun Bayramov avqustun 17-də Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyri diplomatik fəaliyyətinin bitməsi münasibətilə qəbul edib.**



AZƏRTAC Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinə istinadla xəbər verir ki, nazir səfir Həməd bin Abdullah bin Səud bin Xudeyrə fəaliyyəti dövründə Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətlərinin inkişafına verdiyi töhfəyə, peşəkar fəaliyyətə görə dərin minnətdarlığını bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə siyasi, iqtisadi, enerji, humanitar, turizm sahələri üzrə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Azərbaycan və Səudiyyə Ərəbistanı Krallığı arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğu qeyd olunub və iqtisadi-ticarət sahəsində əməkdaşlığın inkişafında əldə olunan nailiyyətlərin məmnunluq doğurduğu vurğulanıb. Həm 30 ilə yaxın işğal dövründə, həm də postmünaqişə dövründə Səudiyyə Ərəbistanının ölkəmizə dəstəyi yüksək qiymətləndirilib.

Yüksəksəviyyəli qarşılıqlı rəsmi səfərləri qeyd edən Ceyhun Bayramov Səudiyyə Ərəbistanının xarici işlər naziri ilə görüşündən, habelə beynəlxalq tədbirlər çərçivəsində həmkarı ilə olan təmaslarından danışıb.

İki ölkə arasında əlaqələrin inkişafından və son zamanlar həyata keçirilən işlərdən bəhs edən səfir Azərbaycandakı fəaliyyəti dövründə ona göstərilmiş dostluq və əməkdaşlıq münasibətlərinə görə minnətdarlığını bildirib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional xarakterli məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Baş prokuror hərbi qulluqçularla görüşüb



**Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev azad olunmuş ərazilərdə dislokasiya olunan bir neçə hərbi hissəni ziyarət edib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi hissələrdə yaradılan şəraitlə tanışlıqdan sonra şəxsi heyətlə görüş keçirilib.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələrdə olduğu kimi, hərbi sahədə də durmadan inkişaf etdiyini bildirib. Vətən müharibəsində qazanılan şanlı qələbənin bunun bariz nümunəsi olduğunu qeyd edib.

Hərbi qulluqçularla görüşlər zamanı döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətin daha da yaxşılaşdırılması, kollektivdə münasibətlərin qanunvericilikdə nəzərdə tutulan tələblər və nizamnamələr çərçivəsində qurulması, həmçinin şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın, hüquq qaydalarının möhkəmləndirilməsi və digər məsələlər barədə söhbətlər aparılıb.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

# İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının növbəti iclası olub



**İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının növbəti iclası Müdafiə Nazirliyində keçirilib.**

Bu barədə AZƏRTAC-a Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətindən məlumat verilib.

İclasdan əvvəl İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının sədri, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev və komissiyanın üzvləri Müdafiə Nazirliyinin Rabitə, informasiya texnologiyaları və kibertəhlükəsizlik baş idarəsinin müasir avtomatik idarəetmə sistemləri ilə təchiz olunmuş Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi və Hərbi Hava Qüvvələrinin yeni istifadəyə verilmiş Mərkəzi Komanda Məntəqəsinin fəaliyyəti ilə yaxından tanış oldular.

Müdafiə Nazirliyində informasiya təhlükəsizliyi sahəsində görülmüş işlərlə tanışlıqdan sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Koordinasiya Komissiyasının üzvlərinə sahə üzrə layihələrlə bağlı ətraflı məlumat verib.

Komissiyanın sədri İlqar Musayev Müdafiə Nazirliyi tərəfindən Azərbaycan Ordusunda informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülmüş işləri yüksək qiymətləndirərək komissiyanın növbəti iclasının keçirilməsi üçün yaradılan şəraitə görə Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası öncədən müəyyən olunmuş gündəliyə uyğun müzakirələrə başladı.

Gündəliyə uyğun olaraq, Koordinasiya Komissiyasında informasiya təhlükəsizliyinə dair dövlət qurumlarından daxil olan məsələlər müzakirə olundu. Komissiyaya üzv qurumların nümayəndələrindən ibarət yaradılmış və 5 fərqli istiqamət üzrə fəaliyyət göstərən işçi qruplarda keçirilən görüşlərin nəticəsi və görülən işlərlə bağlı məlumat verildi, müvafiq qərarlar qəbul olundu.

Komissiyanın gündəliyinə daxil edilən məsələlərə həsr olunan müzakirələrdə komissiya üzvləri rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəis müavini general-leytenant Rəşad Həmzəyev, Xarici Kəşfiyyat Xidmətinin rəis müavini general-leytenant Zaur İsmayılov, Müdafiə Nazirliyinin Rabitə, informasiya texnologiyaları və kibertəhlükəsizlik baş idarəsinin rəisi general-mayor Məmməd Eminov, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, AMEA-nın vitse-prezidenti akademik Rasim Əliquliyev rəy və təkliflərlə çıxış ediblər.

Sonda komissiyanın sədri müzakirələrdə fəal iştirakına görə üzvlərə təşəkkür edərək müzakirə olunan məsələlərin protokollaşdırılması, zəruri tədbirlərin görülməsi, birgə layihələrin hazırlanmasının vacibliyini bildirib. İnformasiya təhlükəsizliyi sahəsində qarşıda duran məsələlərin çoxluğunu nəzərə alaraq belə məhsuldar iclasların daha intensiv keçirilməsinə ehtiyac olduğunu vurğuladı.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Avqustun 17-də baş prokuror Kamran Əliyev Samux Rayon Prokurorluğunun inzibati binasında Samux, Daşkəsən, Kəlbəcər, Göygöl və digər rayonlardan olan vətəndaşlarla görüşüb.**

Baş Prokurorluqdan AZƏRTAC-a verilən məlumata görə, görüşdə iştirak edən 12 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Sonra baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

Həmçinin baş prokuror Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli Fərmanı əsasında yaradılan və Azərbaycan Respublikası prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair əməkdaşların təkliflərini dinləyib, eləcə də müzakirələr aparılmaqla müvafiq göstərişlər verib.

# IV Yay Düşərgəsinin iştirakçıları Qarabağ fatehləri və şəhid anaları ilə görüşüblər

**Naxçıvanda keçirilən "Heydər Əliyev - 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsinin növbəti paneli çərçivəsində Vətən müharibəsinin Naxçıvandan olan iştirakçıları və şəhid anaları ilə görüş olub.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, dövlət komitəsinin Təbliğat, informasiya və analitik təhlil şöbəsinin müdir müavini Cavid İsmayılın moderatorluğu ilə baş tutan panelin qonaqları şəhid leytenant Emin Sadiqovun anası Gülşad Rüstəmova, şəhid baş leytenant Raqib Hüseynovun anası Rəna Hüseynova, şəhid leytenant Vəli Quliyevin anası Həqiqət Quliyeva, Vətən müharibəsinin qaziləri - baş leytenant Əli Əlisoy, ehtiyatda olan kapitan Ceyhun Bayramov və ehtiyatda olan mayor Təbriz Zeynalov olublar.

Panel zamanı şəhid anaları övladları ilə bağlı xatirələrini bölüşüb, qazilər isə keçdikləri döyüş yolundan danışıblar. Düşərgə iştirakçıları isə yaşadıqları ölkələrdə alnıaçıq, üzüağ gəzə bildikləri üçün şəhid analarına və qazilərə ömür boyu minnətdar olacaqlarını bildiriblər.

# Ordumuzun Arazdəyən istiqamətində atəş açması barədə məlumat tamamilə yalandır

Avqustun 17-si saat 21:15-dən 21:30-dək Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin atəşə tutulması barədə qarşı tərəfin yaydığı məlumat tamamilə yalandır.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildirilib.

"Ermənistan müdafiə nazirliyinin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik", - məlumatda qeyd edilib.

# Azərbaycan diplomatiyasının daha bir qələbəsi

# Ayıblı ayıbını bilsə...

## Və ya sonrakı peşmançılıq fayda verməyəcək

Xalqımızın hədəfi dəqiq vuran dəyərli atalar sözləri çoxdur.

Hər birində də dərin məna və həyat təcrübəsi əksini tapıb.

Zaman keçsə də, aktuallıqlarını qoruyub saxlayır, hər dəfə yenidən işlədəndə sanki bu gün üçün deyilidiyi təəssüratını yaradır.

Hayastan dostlarının və havadarlarının köməyi ilə Laçın nəzarət-buraxılış məntəqəsi yaxınlığında "humanitar şou" tamaşası oynayır. **Guya Xankəndidə "ərzaq böhranı" yaranıb və 22 maşından ibarət karvan ora çatmasa, separatçı ermənilər acından qırılacaqdır.**

*Ola bilsin ki, Xankəndidəki separatçılara məxsus on bir min nəfərdən ibarət qanunsuz hərbi birləşmənin ərzaq ehtiyatı azalıb.*

Hayastan onları silah-sursatla, maliyyə vəsaiti ilə, yemək və paltarla təchiz etdiyindən Paşinyan belə bir hoqqabazlıqla Xankəndiyə ərzaq və digər şeylər (TIR-ların içindəkilər nədir, hələ o da dəqiq bilinmir) çatdırmağa can atır.

Həm də istəyir ki, həmin yardım maşınları məhz Laçın yolu ilə aparılsın.

**Deyəsən, Paşinyan unudub ki, 44 günlük müharibədə uduzaraq yalvar-yaxarla hərbi əməliyyatları dayandıran Hayastan olub və şəxsən onun özü də kapitulyasiya aktına - üçtərəfli Bəyanata imza atıb.**

*Yada salırıq ki, şərtləri məğlub tərəf qoymur, qaliblər irəli sürür!*

**Necə ki Müzəffər Ali Baş Komandan İlham Əliyev bu məsələ ilə bağlı son və qəti sözünü deyib: Humanitar yardım yalnız Ağdam yolu ilə Xankəndiyə çatdırıla bilər!**

Vəssalam, şüttamam!

İndi haylar rüşvət və "haxçik" verdikləri, "bacılıq" tutduqları siyasətçiləri və deputatları, diasporun pullu üzvlərini başlarına yığaraq "Azərbaycan "etnik təmizləmə"yə, "soyqırımı"na hazırlıq görür" deyə şivən qoparırlar.

Onların səsinə yığışıb gələn diplomatlar, səfirlik əməkdaşları isə gördüklərini telefonlarına çəkib getdilər.

**İndi hamısı səs-səsə verərək Azərbaycana qarşı haradasa hansısa sənədi qəbul etdirməyə istəyirlər!**

❖❖❖

Bayaq söhbət açdığımız atalar sözlərindən daha biri yada düşür:

*"Ayıblı ayıbını bilsə, başına palaz bürüyər".*

Və yaxud başqa birisi:

*"Dəvə başını kolluğa soxar, elə bilər heç kim onu görmür".*

Bu gün ermənilərə "ağubaşılıq" edənlər Qarabağın otuz ilədək çəkən işğalı dövründə kar, kor və lal oldular!

Beynəlxalq qurum və təşkilatların nümayəndələri isə bir dəfə belə otaqlarından çıxıb Qarabağa gəlmədilər:

- indiki kimi sərhəddə duraraq ermənilərin Hayastanda apardıqları etnik təmizləmələri;
- Qarabağ və Şərqi Zəngəzurdakı dinc əhalinin erməni silahlıları tərəfindən doğma yurd-yuvalarından zorla qovularaq qaçqına və məcburi köçkünə çevrilmələrini;
- işğal zonalarındakı yaşayış məntəqələrini, dini, tarixi və mədəni abidələri, qəbiristanlıqları necə yerləyeksan etmələrini;
- insanlara, təbiətə, yeraltı və yerüstü sərvətlərə qarşı törədilən vandallıqları telefonları ilə çəkmədilər.

*ATƏT-in həmsədr dövlətləri olan Rusiya, ABŞ, Fransa bir dəfə də olsun Azərbaycan xalqına qarşı törədilən vəhşiliklər barədə məsələni araşdıraraq BMT-nin Təhlükəsizlik Şurasında müzakirəsinə cəhd göstərmədilər, insanların kütləvi şəkildə pozulan hüquqlarının bərpası qayğısına qalmadılar, 4 qətnamənin yerinə yetirilməməsinin səbəbləri ilə maraqlanmadılar, Ermənistana qarşı sanksiya tətbiq olunması barədə söhbət belə aparmadılar.*

**İndi nə yaman fəal, humanist, insan hüquqlarını qoruyan, hətta "etnik təmizləmə" və "soyqırımı" hərəkətlərinin "qarşısını almaq üçün" irəlicədən "həyəcan təbili" çalan olublar.**

**Bu canfəşanlıq və "humanistlik" haradan əmələ gəlib?!**

Yoxsa ermənilər üçün xüsusi qanun və konvensiyalar yazılıb, yanaşmalar müəyyən olunub, dünyadakı digər millətlər üçün bir başqa?!

❖❖❖

*"Utanmasan oynamağa nə var"* - bu da bir atalar sözüdür.

Makron prezident seçildiyinə görə özünü Fransa xalqına yox, Fransadakı ermənilərə və erməni diasporuna borclu sayır.

"Kiçik bacı"sının borcundan nə vaxt və necə çıxacağını heç özü də bilmir.

ABŞ Senatı hələ 1992-ci ildə haqsız yerə Azərbaycana qarşı tətbiq etdiyi "Azadlığı Müdafiə Akt"na 907-ci düzəlişi etməklə yol verdiyi səhvini tam aradan qaldırmayıb.

Üstəlik ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin rəhbəri Robert Menendezi Hayastana "məsələni araşdırmağa" göndərib.

R.Menendez isə, təbii ki, erməniəsilli arvadı Nadine Arslanyanın sözünü deyəcək, əsl həqiqətə göz yumacaq.

Həm də elə-belə yox.

Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya "sülhməramlı" qüvvələri isə sülhdən, Ermənistanın qanunsuz silahlı qüvvələrinin Qarabağdan çıxarılmasından çox onların təchizatına, rahat yaşamalarına qulluq göstərməkdədir.

Adı rüşvətxorluqda və korrupsiyada daim hallanan Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş prokuroru Luis Okampo da ermənilərin borcundan çıxmaq üçün saxta və yalançı bir hesabat hazırlayıb.

**Əgər bunlar həqiqətən ədalətli, beynəlxalq hüquqa hörmət edən, həm də humanist və insanpərvərdilərsə, onda otuz il haradaydılar?!**

**İndi hansı üzlə haqq-ədalətdən dəm vururlar?!**

**Guya biz bilmirik ki, hərəsi öz marağını təmin etmək üçün dəridən-qabıqdan çıxır?!**

- Torpağın da yiyəsi bizik!
- Sərhədin və onun qapısının da sahibi bizik!



- Humanitar yüklərin nə vaxt və hansı yol ilə buraxılması məsələsini də həll edən bizik!

**Heç biz öz marağımızı qoyub, sizin məkrli planlarınızın reallaşmasına imkan verərik?**

*O, sizin xam xəyalınızdır!*

❖❖❖

*Dünyanın işinə bax ha...*

- Otuz il əvvəl baş verən Xocalı soyqırımını "unudanlar", bu günədək dinc əhaliyə qarşı törədilmiş vandallığı "yaddan çıxaranlar" Qarabağda ermənilərin "etnik təmizlənməsi"ndən narahatdırlar.
- Qərbi azərbaycanlıların haqqını tanımaq istəməyənlər ermənilərin Qarabağdan köçüb gedə biləcəklərindən əndişəyə düşüblər!
- Üçtərəfli Bəyanatın bəndlərinin icrasını qulaqardına vuraraq Zəngəzur dəhlizinin açılmasına əngəl törədənlər Laçın yolu ilə sərbəst, kefləri istəyən kimi gedib-gəlməyə can atırlar.
- Otuz il BMT TŞ-nin 4 qətnaməsini saya salmayan Hayastan indi BMT-də xüsusi iclas çağırılaraq Azərbaycan əleyhinə qətnamə qəbul etdirmək istəyirdi.
- 44 günlük müharibədə silahsursatını, zirehli texnikasını atıb qaçan, 11 min nəfər fərarisi olan, hazırda ordusu erməni arvadlarının və "qocaman çağırışçılar"ın ümidinə qalan Ermənistan indi zorla Laçın yolundan keçmək fikrindədir.







**Deyəsən, 44 gündə "məğlubedilməz" ordularını nə günə qoyduğumuzu, atıb-qaçdıqları silahsursatlarını Bakıdakı Hərbi Qənimətlər Parkında nümayiş etdirdiyimizi yaddan çıxarıblar.**

*Eybi yox, zamanı çatan kimi yaddaşlarını təzələyərik!*

❖❖❖

*Hələ ki səbir edirik:*

- Qoy revanşist erməni toplumu istədiyi qədər Paşinyanı itsürütməsi etsin.
- Qoy bacardıqları qədər kütləvi etiraz aksiyaları keçirərək çərənləyib ürəklərini boşaltsınlar.
- Qoy beynəlxalq təşkilatlara istədikləri qədər müraciətlər edib, məktublar yazsınlar!
- Qoy Laçın sərhədinə istədikləri qədər diplomat, səfir, deputat, pensiyaçı, jandarm, turist və s. yığıb şəkil çəkdirsinlər.
- Qoy TIR-larını günün altında istədikləri qədər saxlayıb "zaqar" eləsinlər.

*Necə deyərlər, itin dişi, donuzun dərisi!*

Nə dəyişəcək?!

**Azərbaycan Prezidenti İlham Əliyev sözünü bir dəfə deyir:**

- Laçın yolundan yalnız Azərbaycanın nəzarəti və icazəsi ilə humanitar məqsədlə istifadə oluna bilər!
- Ermənistandan Xankəndiyə yardım maşınları yalnız Ağdam-Xankəndi yolu ilə keçə bilər!
- Qarabağda baş verən bütün proseslər Azərbaycanın daxili işidir və Azərbaycan onu kiminləsə məsləhətləşmək niyyətində deyil!
- Azərbaycan özünün erməniəsilli vətəndaşları ilə birbaşa, vasitəçilərsiz danışacaqdır!
- Azərbaycan qanunlarını qəbul edərək Qarabağda yaşamaq istəyənlər ölkədəki digər milli azlıqlar kimi bütün hüquqlardan istifadə edəcək, təhlükəsizlikləri qorunacaqdır, bunu istəməyənlərin isə yolu açıqdır!
- Ermənistan Azərbaycanın ərazi bütövlüyünü yazılı formada tanımasa, Azərbaycan da onun ərazi bütövlüyünü tanımayacaqdır!

❖❖❖

**44 günlük Vətən müharibəsində böyük qələbəmizlə yanaşı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa sistemli olaraq müraciətləri, beynəlxalq mediaya müsahibələri də tariximizin qızıl səhifələrinə həkk olunub.**

*Həmin müraciətlərin birində Prezidentimiz tərəfindən gözəl bir ifadə də səsləndirildi və elə həmin andan da idiomatik ifadəyə, atalar sözünə çevrildi:*

**Nooldu, Paşinyan?!**

Bu ifadənin duzu və ləzzəti "Böyük Ermənistan" xülyasını, erməni işğalının iflasa uğramasını və tarixin qara səhifələrinə çevrilməsini özündə dolğun əks etdirməsidir!

*Şeir və meyxanaların nəqarətinə çevrilən bu ifadə hər dəfə erməni təxribatları, məkrli və hiyləgər oyunları iflasa uğrayanda xatırlanır və yenidən gündəmə gəlir.*

**Avqustun 16-da BMT-nin Təhlükəsizlik Şurasının iclasında Hayastan istədiyinə nail ola bilmədiyindən bir daha məzə ilə səslənir:**

**Nooldu Paşinyan?!**

*Əvvəla,* BMT ayıb bir iş görərək qəbul etdiyi 4 qətnaməsini 30 il ərzində yerinə yetirməyən Ermənistanın müraciəti ilə gündəliyə "humanitar şou" ilə bağlı məsələ daxil etmişdi.

*İkincisi,* Azərbaycanın sırf daxili işi ilə bağlı, öz sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması, erməniəsilli vətəndaşlarına humanitar yardımın hansı yolla və marşrutla çatdırılması məsələsini müzakirəyə çıxarmışdı.

*Ən nəhayət,* ona hörmət etməyən, qətnamələrini saya salmayan haylarla bağlı hansısa sənəd qəbulu niyyətinə düşmüşdü.

**Haylar da cavabını aldılar, məsələni gündəliyə salanlar da!**

Qalır bizim məşhur yeni atalar sözünü bir daha qürur və ləzzətlə səsləndirməmiz:

*Nooldu, Paşinyan?!*

- TIR-ların Laçın yolundan keçdimi?
- Rüşvətlə ələ aldığın muzdlu siyasətçilərin işinə yaradılarmı?

**Axı yaxşı bilirsən ki, Azərbaycan Prezidenti dediyini həm edir, həm də etdirə bilir!**

**İndi TIR-larını çevir, Ağdam-Xankəndi yoluna sürdür.**

**Qalib gələn də, iradəsini diktə edən də, şərt qoyub ona əməl etdirən də Azərbaycandır!**

**İlham Əliyevin Azərbaycanı!**

❖❖❖

**Qalib Azərbaycan sülh istəyir, əməkdaşlıq istəyir və sülh təklifi gündəliyindədir!**

Lakin bu, əbədi olmayacaq! Ermənistan bu barədə ciddi düşünməlidir!

Vaxtını "humanitar şou"lara sərf etməməlidir, kiməsə, nəyəsə arxayın olub revanşizm eşqinə düşməməlidir!

*44 günlük dərsi unutmaq yeni faciələrlə nəticələnə bilər!*

*Beynəlxalq hüquq və ədalət Azərbaycanın tərəfindədir!*

*Güclü orduya, güclü iqtisadiyyata və böyük insan potensialına malik olan tərəf də Azərbaycandır!*

İndi Azərbaycan qurub-yaratmaqla, yeni yaşayış məntəqələri tikib insanları doğma yurdlarına qaytarmaqla məşğuldur!

**Heç bir hədədən çəkinmir, heç bir kağız parçası onun iradəsinə təsir edəcək gücdə deyil!**

Otuz il səbir etdikdən sonra öz problemini hərbi yolla özü nizama saldı, düşməni məhv edərək torpaqlarından qovdu!

Yenə də səbir edir!

Amma indiki səbir bir o qədər uzun çəkməyəcəkdir!

*Qarabağda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti 2025-ci ildə çıxıb gedəcəkdir!*

*"Dəmir yumruq" isə həmişəki kimi hazır vəziyyətdədir!*

**Əslində, Ermənistanın başbilənləri və havadarları bu forpost dövləti xilas etməyə tələsməlidirlər.**

Sonda isə... yenə bir atalar sözü:

*"Altda qalanın canı çıxsın".*

**Bəxtiyar SADIQOV**







# Azərbaycan diplomatiyasının daha bir qələbəsi

## İFLAS! Şillə Paşinyandan daha çox Makrona dəydi



**Ermənistanın kompleks komponentlərdən ibarət olan təxribatları - siyasi şantajı, "humanitar böhran", "davam edən blokada" şouları ilə bağlı əsassız iddiaları hər zamankı kimi iflasa uğradı. Onların BMT Təhlükəsizlik Şurasına etdikləri müraciət tərs şillə kimi bumeranq effekti verdi.**

Bütün beynəlxalq toplantılarda İlham Əliyev konkret faktlara əsaslanan fikirləri, diplomatik gedişləri ilə Nikol Paşinyanı necə sındırırdısa, BMT Təhlükəsizlik Şurası da Ermənistana, xüsusən də onun "böyük bacısı" Fransaya eyni aqibəti yaşatdı.

Çox ümidli və həvəsli idilər ki, dünyanın ən böyük siyasi təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurası Azərbaycana qarşı qətnamə qəbul edəcək, sanksiya verəcək, bununla da "Laçın dəhlizi" dedikləri Laçın yolundakı sərhəd-buraxılış məntəqəsi ləğv ediləcək və ermənilər Qarabağda "at oynatmağa" başlayacaqlar. Amma sən saydığını say, gör BMT nə deyir?!

Bu ali qurumun rəhbərliyi də, daimi üzvləri də yaxşı bilirlər ki, 30 il Azərbaycana qarşı ədalətsizlik ediblər. Başqa dövlətlərin xeyrinə qəbul etdikləri qətnamənin mürəkkəbi qurumamış icrasını yerinə yetirdikləri halda Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasına dair 4 qətnaməsi illərlə arxivdə qaldı. Azərbaycan münaqişənin sülh yolu ilə həlli üçün dəfələrlə çağırış etsə də, nə BMT-dən, nə ATƏT-dən, nə də dünya birliyindən səs çıxdı. Sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını bəyan etsələr də, əməldə heç bir iş görmədilər. İşğalçıya qarşı heç bir sanksiya tətbiq olunmadı. Bu cəzasızlıq mühitindən yaxşıca yararlanan Ermənistan 30 il işğal etdiyi torpaqlarda bütün iyrəncliklərə əl atdı, dağıtdı, daşı daş üstə qoymayıb 7 rayonumuzu yerləyeksan etdi...

İndi isə vəziyyət tam başqadır. Azərbaycan işğal altında olan torpaqlarını geri qaytardıqdan sonra bütün dövlətlər kimi öz ərazilərində qanunlarını tətbiq edir. Başqa dövlətin ərazisinə müdaxilə etmir və bununla bağlı heç bir iddiası da yoxdur. Yəni indi Qarabağ və Şərqi Zəngəzurda diktə edən tərəf Azərbaycandır!

İndi keçək Ermənistanın və Fransanın təkidli tələbi ilə baş tutan BMT Təhlükəsizlik Şurasının iclasına. Bu iclas rəsmi İrəvanın "Laçın dəhlizinin blokadası səbəbindən qarabağlı ermənilərin gündəlik tələbat malları, ərzaq, dərman preparatları və yanacaq təminatında çox ciddi problemlər yaranıb" iddialarına əsasən təşkil edilmişdi. Ermənistan və havadarı Fransa çox arxayın idilər ki, bu ali qurum müzakirə apardıqdan sonra Azərbaycanın əleyhinə olan qətnamə qəbul edəcək. Amma Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev və qardaş Türkiyənin daimi nümayəndəsi Sedat Önal, eləcə də Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərakatının üzv dövlətlərinin təmsilçiləri Ermənistanın iddialarını ifşa etdilər.

Çıxışına Ermənistanın ölkəmizə qarşı təbliğ etdiyi "blokada" və ya "humanitar böhran" ilə bağlı bütün əsassız və sübutu olmayan iddialarını qətiyyətlə rədd etməklə başlayan Yaşar Əliyev bildirdi ki, Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniyadır. Daimi nümayəndəmiz Ermənistanın davamlı dezinformasiyasından, beynəlxalq ictimaiyyəti manipulyasiya etmək və çaşdırmaq üçün apardığı kampaniyadan danışaraq əsl həqiqətləri ortaya qoydu. Sedat Önal isə Türkiyənin Ermənistanın Təhlükəsizlik Şurası da daxil olmaqla beynəlxalq platformalardan Laçın yolu ilə bağlı siyasi iddialarını səsləndirmək cəhdlərindən narahatlığını ifadə etdi.

Çıxış edənlərin əksəriyyəti ölkəmizin ərazi bütövlüyünə hörmətini ifadə etdi, Ağdam-Xankəndi yolunun açılmasını vacib saydı və hər kəs Azərbaycanın yerində vəziyyətə nəzarət etməsi faktını - reallıqları qəbul etdi.

İrəvanın iddialarını təkzib edən bu kimi çıxışlar Hayastanı və Fransanı "pat" vəziyyətinə saldı. Onların BMT TŞ-dən bütün gözləntiləri iflasa uğradı. Xüsusən də erməni diasporu və lobbisinin, ermənipərəst dairələrin səyləri nəticəsiz qaldı.

BMT TŞ-nin ənənəvi iclasını keçirmək üçün qərargaha toplaşdılar, söhbətləşdilər, sonra dağılışdılar. Bu iclas Ermənistan üçün fiasko oldu. Bu həm də Azərbaycan diplomatiyasının uğuru, aylardır əsassız iddialarla çıxış edən, ölkəmizin əleyhinə qətnamənin qəbul edilməsi üçün dəridən-qabıqdan çıxan Hayastanın XİN başçısı Ararat Mirzoyanın acı məğlubiyyəti idi. Bu, Fransa və Ermənistanın artıq Azərbaycanla bağlı məsələdə ikinci iflası kimi yadda qaldı. Ötən ilin dekabrında da "iki bacı" məsələnin BMT TŞ-də qaldırılmasına cəhd etmişdilər. Hər iki halda cəhdləri nəticəsiz qaldı.

Bir daha təsdiq olundu ki, belə müzakirələrə ehtiyac yox idi, məsələ BMT və digər platformalarda deyil, yerində həll olunmalıdır. Bundan sonra Ermənistanın hansı üzlə sülhdən danışacağı maraq doğurur. Əslində isə onlardan hər şey gözləmək olar. Necə ki bu gün etdikləri kimi...

Etdikləri xainlik, buqələmunluq göz önündədir. Bir tərəfdən dünyaya Azərbaycanın Qarabağın erməni əhalisinə qarşı "humanitar fəlakət" həyata keçirdiyini car çəkir, digər tərəfdən Qarabağdakı separatçıları silahlandırır, ərazilərimizə kəşfiyyat-diversiya qrupları göndərir (diversantlardan birinin həbs edilməsi faktı təsdiqləyir), kənd təsərrüfatı işləri adı altında atəş dəstəyi ilə uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstərir. Bu, açıq-aşkar göstərir ki, ermənilər müharibə hazırlıqları görür.

Bütün bunlar bir daha Ermənistanın siyasi şantajının arxasında dayanan əsl məkrli niyyətini üzə çıxarır. Guya Azərbaycanın diqqətini yayındırıb yenidən silahlı birləşmələrinin arsenalını gücləndirməklə nəyəsə nail olacaqlar. Amma unudurlar ki, "dəmir yumruq" bu dəfə işə düşsə, İkinci Qarabağ müharibəsində aldıqları zərbədən daha ağırını alacaqlar. Qarabağın erməni sakinləri də anlamalıdılar ki, başqa yolları yoxdur - Azərbaycanın şərtləri əsasında danışıqlara getməlidirlər. Çünki beynəlxalq hüquq, haqq-ədalət Azərbaycanın tərəfindədir, İrəvanın istənilən oyunu məhvə məhkumdur.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Puç olan "ümidlər"

### BMT Təhlükəsizlik Şurası bu dəfə də Ermənistanın əsassız iddialarının üstündən xətt çəkdi





**Avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Azərbaycanın Qarabağ bölgəsində vəziyyətə dair qurumun daimi və müvəqqəti üzvlərinin, BMT nümayəndələrinin, o cümlədən Türkiyə, Azərbaycan və Ermənistan təmsilçilərinin iştirakı ilə müzakirələr aparıldı.**

Budəfəki müzakirələr Ermənistanın şikayəti əsasında keçirilirdi. Rəsmi İrəvanın istəyi Azərbaycanın Laçın sərhəd-buraxılış məntəqəsində guya yaratdığı "humanitar böhranın" aradan qaldırılması idi. Lakin bu ali qurum erməni iddialarını əsassız saydı və Hayastanın bütün gözləntiləri puç oldu.

Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev çıxışında gətirdiyi faktlarla Ermənistanın əsassız iddialarının üstündən xətt çəkdi. Belə ki, o, Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı iddiaları, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə xələl gətirmək üçün aparılan təxribat xarakterli və məsuliyyətsiz siyasi kampaniya olduğunu diqqətə çatdırdı. Nəticədə Ermənistan və havadarlarının növbəti oyunu pozuldu, fiaskoya uğradı.

Azərbaycan Xarici İşlər Nazirliyinin BMT TŞ-də aparılan müzakirələrlə bağlı yaydığı bəyanatda da qeyd olunub ki, Ermənistanın bu təşkilatdan növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar olub. Ermənistanın sözügedən ali orqanının bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir.

"Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüquq normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini, nəhayət ki, anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır", - deyə bəyanatda bildirilib.

### Azərbaycan diplomatiyasının böyük uğuru

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında deyib ki, postmünaqişə dövründə Ermənistan və havadarları BMT Təhlükəsizlik Şurasında üçüncü dəfə fiaskoya məruz qalıb. Ermənistan havadarlarının dəstəyi ilə Azərbaycan əleyhinə qətnamə ümidi ilə humanitar böhran şousunu BMT Təhlükəsizlik Şurasının iclasına daşıya bilsə də situasiya İrəvanın özünə qarşı dəyişdi.

Deputatın sözlərinə görə, ilk növbədə Prezident İlham Əliyevin beynəlxalq hüququn prinsiplərinə və BMT Nizamnaməsinə əsaslanan direktivlərini rəhbər tutan Azərbaycan nümayəndəsinin tezisləri BMT TŞ üzvlərini fakt qarşısında qoydu. Daimi və qeyri-daimi üzvlər ya BMT Nizamnaməsinin məqsədləri, prinsipləri, o cümlədən sənədin ikinci maddəsinin dördüncü bəndində ehtiva olunan, habelə beynəlxalq hüququn ümumtanınmış prinsipləri kimi təsbit olunmuş ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərini, həmçinin dövlətlərin suverenliyi anlayışını görməzdən gələrək İrəvanın iddialarını müdafiə etməli, ya da hüququn aliliyini rəhbər tutmalı idilər. Düzdür, Fransa, habelə Parisin orbitində olan Malta və İsveçrə nümayəndələri məsələni kontekstdən çıxararaq imitasiyalara cəhd etdilər, lakin yekunda BMT Təhlükəsizlik Şurasının iclasında hədəflənən nəticə hasil edilmədi.

Deputat vurğulayıb ki, iclas heç bir sənəd və ya qərar qəbul edilmədən başa çatsa da, bunu nəticəsiz hesab etmək olmaz: "İlk növbədə bu prosesin gedişatının özü Azərbaycan diplomatiyasının böyük uğuru, Ermənistanın isə növbəti dəfə ifşası kimi tarixə düşdü. Daha doğrusu, İrəvan nə qədər riyakar və ikiüzlü olduğunu dünyaya göstərdi. 30 il BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini görməzdən gələn, sənədləri icra etməkdən açıq formada imtina etməklə TŞ-ni heçə sayan bir dövlətin bu təşkilatdan mədət ummasının riyakarlıqdan başqa adı yoxdur. İkincisi, Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Təhlükəsizlik Şurasının iclasına "artsaxlı" uşaqların fotoları ilə qatılması, yalnız Xocalıda 63 uşağı işgəncə ilə öldürən, münaqişə dövründə döyüş bölgəsindən uzaqda yerləşən yaşayış evlərini birbaşa hədəfə almaqla 20-yə yaxın azyaşlı və körpənin məhvinə səbəb olan bir dövlətin bu gün uşaq hüquqlarından danışması, uşaqların kölgəsinə sığınması ləyaqətsiz davranış idi".

B.Məhərrəmov deyib ki, BMT Təhlükəsizlik Şurasının iclasının nəticələri Azərbaycanı qane etsə də, bütövlükdə prosesin özü BMT-nin məqsəd və prinsiplərinə zidd formada siyasi manipulyasiyaların alətinə çevrildiyini və Prezident İlham Əliyevin bəyan etdiyi kimi, təşkilatda islahatların labüdlüyünü bir daha gündəmə gətirdi. Əgər dövlətlərin ərazi bütövlüyü və suverenliyini təhdid edən, separatizm meyillərinə dəstək verməklə regionda sülh və sabitliyə açıq formada əngələ çevrilən saxta iddialar dünyanın bir nömrəli masasında müzakirə mövzusuna çevrilirsə, bu, o deməkdir ki, həmin masa artıq özünün fövqəl əhəmiyyətini itirib. Ermənistanın saxta "humanitar şou"sunu müzakirəyə çıxarmaqla BMT Təhlükəsizlik Şurası bir daha göstərdi ki, bu struktur artıq bəşəri dəyərlər adına səmərəli platforma deyil.

### Ermənistan növbəti dəfə fiaskoya uğradı

Milli Məclisin deputatı Tahir Kərimli qeyd edib ki, BMT Təhlükəsizlik Şurasındakı bu müzakirələrdə Azərbaycanın beynəlxalq hüququn tələblərini yerinə yetirməsi, onun ərazi bütövlüyünün toxunulmaz olduğu qırmızı xətlə keçdi.

Deputat bildirib ki, Ermənistan da, havadarları da fiaskoya uğradılar: "Hətta ABŞ və Fransa etdikləri canfəşanlıqlara baxmayaraq, Azərbaycanın arqumentləri qarşısında susqun qaldılar. Hayastanın XİN başçısı Ararat Mirzoyan Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin çıxışından sonra susub yerində oturdu. Hər şey doğru, düzgün qeyd olundu və bildirildi ki, Ağdam-Xankəndi yolu açıqdır, əgər Ermənistan humanitar fəlakət deyirsə, nə üçün bu yoldan istifadə etmir? Yaxud ermənilər niyə Azərbaycanın yardımından imtina edirlər? Azərbaycanın mövqeyini qardaş Türkiyə, Albaniya, Braziliya müdafiə etdi. Onlar ölkəmizin tələblərinin eşidilməsini bir daha vacib saydılar".

T.Kərimli hesab edir ki, bu, Azərbaycanın beynəlxalq müstəvidə qələbəsidir. Aciz, həmişə ağlayan Ermənistanın uzun zamandır hazırlaşdığı və BMT Təhlükəsizlik Şurasındakı növbəti cəhdi yenə fiaskoya uğradı. Mirzoyan Ermənistana əliboş qayıtdı. Beynəlxalq platformada Azərbaycanın haqq işi, ərazi bütövlüyü, suverenliyi təsdiq olundu. Bu, Azərbaycanın beynəlxalq aləmdə gücünü bir daha nümayiş etdirdi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Beynəlxalq təşkilatlar erməni vəhşiliklərinə göz yumurlar

**Ermənilər Qarabağda insanlığa yaraşmayan hər cür vəhşiliklər etdilər, əsrin fəlakətini törətdilər, qocaları, qadınları, uşaqları amansızlıqla qətlə yetirdilər, səsini çıxaran olmadı.**

Xocalıda əsir götürdükləri hamilə qadınların bətnindən doğulmamış körpələri çıxarıb yerinə pişik balaları qoydular, dünya bu vəhşiliyi də görməzdən gəldi. Əsir götürdükləri insanların qarnını yarıb diri-diri donuzlara yem etdilər, bunu eşidən-bilən "mərhəmətli" beynəlxalq təşkilatlar heç gözlərini də qırpmadılar. Ermənilər BQXK-nin qeydə aldığı əsirlərə işgəncə verib, mismar yedizdirib "yox" etdilər, bu "mötəbər" təşkilat heç səsini də çıxarmadı. Ermənilər torpaqlarımızı işğal edib, işğal etdikləri əraziləri ölüm koordinatına çevirdilər, dinən olmadı...

Ermənilərin ərazilərimizi işğal edib əhalini yerindən, yurdundan didərgin salması ilə bağlı BMT 4 qətnamə çıxarsa da, öz sənədinin icrası üçün heç bir iş görmədi... Ermənilər torpaqlarımızı işğalda saxladıqları 30 ildə hər gün bizi yeni ərazilərimizi işğal edəcəkləri, tanklarını Bakıya sürəcəkləri ilə hədələyəndə, problemin həlli üçün vasitəçilik edən təşkilatlar "problemin hərbi yolla" həlli yoxdur dedilər...

Ermənilər vəziyyətə uyğun olaraq xallarını dəyişsələr də, xasiyyətlərini dəyişmirlər. Özlərinə lazım olanda rəngdən-rəngə düşə bilirlər. Bir zamanlar qəhrəmanlıqları ilə öyünən, "qüdrətli Ermənistan" ordusundan danışan haylar yenə valı dəyişib köhnə "bayatılar" səsləndirirlər. "Genosidə uğramış xalq", "blokada", "humanitar böhran" ifadələrini işə salırlar. Yer üzündə ermənilər qədər, olmayan "faciədən", "yazıqlıqdan", "məzlumluqdan" yararlanan başqa bir millət yoxdur. Guya 1915-ci ildə türklər tərəfindən "genosidə" məruz qaldıqlarını əldə dəstəvuz edib hələ də utanmadan yardım toplayırlar. Özlərini zərərçəkmiş xalq kimi, yazıq göstərməkdən zövq alırlar. Əllərinə fürsət düşən kimi də "əzrailə" dönürlər. Çox uzağa getməyək. Cəmi bir neçə il öncə Ermənistanın baş naziri Nikol Paşinyanın yeyib-içdikdən sonra dediyi "məşhur" "Qarabağ Ermənistandır nöqtə" kəlamını xatırlamayan tapılmaz. İndi bu adam az qala hər gün "Qarabağ Azərbaycandır" deyərək yatıb-durur, hətta bunu ermənilərə də əzbərlədir. Nə qədər qəribə olsa da, hər iki sözü deyən bu şəxs onda da, indi də Ermənistana rəhbərlik edən kəsdir.

Hərbi məğlubiyyətə uğrayıb gücdən düşən hayların əli hər yerdən üzülüb. Daha Qarabağa leqal yolla silah-sursat daşıya bilmirlər. Daha "biz güclüyük, lazım gəlsə tanklarımızı Bakıya qədər sürərik", - deyə bilmirlər. Əlac yalnız erməni həyasızlığına qalıb. Qarabağda yaşayan ermənilər siyasi oyunların alətinə çevrilib.

"Humanitar böhran" şousu yaradırlar. Dünyaya səs salıb 120 min ermənin "blokada" şəraitində olduqlarını, hətta "humanitar fəlakət" yaşadıqlarını bar-bar bağırırlar. Özünü "yazıq", "məzlum" göstərmək erməninin xislətidir. Düşünürlər ki, həyasızlıqları bəlkə dadlarına çatdı. Pisi budur ki, dünyanın ədalət gözlədiyi, haqq umduğu bəzi beynəlxalq təşkilatların nümayəndələri də "konyak" diplomatiyasının təsirinə düşdüklərini açıq-aydın nümayiş etdirirlər.

Beynəlxalq Cinayət Məhkəməsinin (ICC) keçmiş prokuroru Luis Moreno Okampo bu ilin avqustun 7-də absurd bir "ekspert rəyi" verib. Sabiq prokuror "öz rəyində" Roma statutunun müvafiq 6 b) və 7.2. b) maddələrinə istinad edərək Qarabağı "fəlakət zonası" adlandırıb. Rəylə tanış olan hər kəsdə belə qənaət yaranır ki, bu rəyi ermənilər yazıb, Luis Moreno Okampo isə, sadəcə olaraq, imzalayıb. Əgər bu rəyi oxuyub "gözüyumulu" imzalamasaydı, bu "hüquqşünas" ən azından soruşardı ki, 7 ay ərzində əraziyə həyatı təmin edən ərzaq və digər yaşayış vasitələri daxil olmayıbsa, istilik və enerji təchizatı yoxdursa, o zaman aclıqdan, xəstəlikdən nə qədər əhali məhv olub? Ermənilər durmadan Qarabağda 120 min əhalinin yaşadığını dünyaya car çəkirlər. Əgər əhalinin sayı 7 ay bundan əvvəl də, indi də 120 mindirsə, bəs onda nə əcəb "humanitar fəlakət" bir nəfər də olsun erməninin həyatını məhv etməyib. Ermənilər durmadan 2 min hamilə qadının blokadadan əziyyət çəkdiyini iddia edir. Nə əcəb hesabatlarda "əzabkeş xalq"ın dünyaya gətirdikləri uşaqların qidasızlıqdan, tibbi ləvazimat çatışmazlığından, şəraitsizlikdən ölü doğulan, doğulub tələf olan uşaqlarının sayını açıqlamırlar? Əgər 7 aydan da çox vaxtda "hər hansı bir qrup üçün onun tam və ya qismən fiziki məhvinə hesablanmış və pis yaşayış şəraitinin qəsdən yaradılması" baş verirsə, nəticədə bir nəfər də olsun zərər görməyibsə, ortada heç bir dəlil-sübut yoxdursa, o zaman nə əsasla hansı soyqırımı və ya müharibə cinayətindən danışılır?

Görəsən, bu cür söz yığnağına imza atan sərsəmlər bilirlərmi və ya ən azı məlumatları varmı ki, Ermənistan 1990-cı ildən Naxçıvanı blokadada saxlayır. Ermənistandan keçməklə Naxçıvana gedən bütün kommunikasiya vasitələri onlar tərəfindən məhv edilib. Üçtərəfli Bəyanatla öz üzərinə öhdəlik götürən Nikol Paşinyan inadla, müxtəlif bəhanələrlə Naxçıvanın blokadasını aradan qaldırmaqdan hələ də imtina edir. Qarabağda, guya, "humanitar fəlakət" yaşandığını iddia edən Ermənistan hələ də Qarabağda 15 min qoşun saxlamaqdadır.

Azərbaycan Qarabağda yaşayan ermənilərə irihəcmli daşımalar üçün Ağdam-Xankəndi yolunu təklif edib və sözünün üstündə də durub. Bu yolu beynəlxalq normalara uyğun olaraq təmir də edir. Daşımaları həyata keçirənlərin təhlükəsizliyinə təminat verir. Eyni zamanda Laçın yolu da Qarabağın Ermənistana gedən və ya əksinə hərəkət edən insanlarının üzünə açıqdır. Hər gün BQXK-nin avtomobilləri hər iki istiqamətə erməni daşımaqla məşğuldurlar.

Soruşmaq lazımdır: Ermənistan bu dəqiqə blokadada olan Naxçıvana gedib-gəlmək üçün hansı marşrutu təklif edir. Son dəfə BQXK öz avtomobilləri ilə Ermənistandan keçməklə Naxçıvandan neçə nəfəri Azərbaycana gətirib?

Bəlkə Naxçıvan heç illərdir Ermənistan tərəfindən blokadaya alınmayıb? Bəlkə 200 mindən çox azərbaycanlını öz dədə-baba yurdlarından didərgin salan ermənilər olmayıb? Bəlkə hər gün tapılan kütləvi məzarlıqlarda yatan cansız bədənlər azərbaycanlı əsirlərinə aid deyil? Ermənilərin utanmaq kimi insani hissləri olmadığını bilirik. Bəs bu erməni yalanlarına uyub, erməni konyakının təsirindən məst olub, erməni lobbisinin maliyyəsi hesabına vicdanını hərraca qoyanlar necə? Onlardamı tam insani hisslərdən məhrum olublar?

Kimin nə danışmasından, kimin nə yazmasından və nə düşünməsindən asılı olmayaraq, bilirik ki, mübarizəmiz ədalətə söykənir. Heç kimin nə torpağında, nə də malında-mülkündə gözümüz yoxdur. Təzyiqə məruz qalan da bizik, zərər çəkən də... Ermənilərin törətdikləri vəhşiliklərin yarası ürəyimizdə, izləri isə işğaldan azad etdiyimiz ərazilərdədir. Bu mənzərə ilə tanış olmaq üçün dəfələrlə beynəlxalq təşkilatların nümayəndələrini, hətta onlardan xüsusi komissiya yaradıb Qarabağa göndərmələrini istəmişik, yenə də istəyirik. Bunu etməyənlər, "beynəlxalq hüquq"dan Azərbaycana qarşı təzyiq məqsədi ilə istifadə etmək istəyənlər yanılırlar. Azərbaycanın "dəmir yumruğ"u olduğu kimi, dəmir iradəsi də var. Hansını nə zaman, harada işlədəcəyini çox yaxşı bilən qətiyyətli Prezidenti var. Öz işimizi özümüz yaxşı bilirik.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan XİN Paşinyanın BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələri təhrif etməsinə münasibət bildirib

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 17-də hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasındakı (BMT TŞ) müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsinə münasibət bildirib.**



AZƏRTAC xəbər verir ki, XİN Ermənistan baş nazirinin çıxışında müzakirə və bəyanatları təhrif etməsini Ermənistanın növbəti dəfə BMT TŞ-də düçar olduğu uğursuzluqla barışmaq istəmədiyi kimi şərh edib.

Bildirilir ki, bölgədə "humanitar vəziyyət" barədə hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş Ağdam-Xankəndi yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsinə çağırışlara baxmayaraq, Ermənistan baş nazirinin bu yoldan istifadəni qəbul etməməsi qarşı tərəfin bölgədə vəziyyəti daha da gərginləşdirmək niyyətindən xəbər verir.

Məlumatda deyilir: "Bununla yanaşı, BMT TŞ üzvlərinin əksəriyyətinin vurğuladığı kimi, bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin "bölgədə humanitar vəziyyət", "blokada" kimi bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur. Eyni zamanda üzv dövlətlərin Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının nəzərə alınmasının zəruri olduğunu bildirmələri, bu narahatlıqların həlli istiqamətində səylərin birləşdirilməsinin vacib olduğunu bir daha xatırladır. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətinə qarşı Ermənistanın müqavimət göstərməsi, baş nazirin guya ölkəmiz tərəfindən erməni sakinlərə qarşı atəş açdığı barədə iddialar səsləndirməsi və ölkəmizi "etnik təmizləmə"də təqsirləndirməsi Ermənistan rəhbərliyinin bölgədə reallıqları hələ də düzgün qiymətləndirmədiyini nümayiş etdirir. Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir".

# Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə istifadə etmək cəhdi uğursuzluğa düçar oldu

**Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu.**

Ermənistanın sözügedən ali orqanının bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir. AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanatında bildirilib.

Bəyanatda həmçinin qeyd olunub ki, Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır.

# Xarici İşlər Nazirliyi BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanat yayıb

*Əvvəli 1-ci səh.*

BMT Təhlükəsizlik Şurasının üzvü olan bir neçə dövlətin, eləcə də Türkiyənin Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin ehtiyaclarını ödəmək üçün məhsulların çatdırılması ilə əlaqədar xüsusilə Ağdam-Xankəndi yolu olmaqla, Azərbaycan tərəfindən təklif olunan bütün marşrutların fəaliyyət göstərməsi ilə bağlı səmimi dialoq və vicdanlı qarşılıqlı fəaliyyətin zəruriliyi barədə verilən bəyanatları yüksək qiymətləndiririk.

Müzakirələr Azərbaycanın Ağdam-Xankəndi yolundan istifadə təklifinin beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandığını və yüklərin Azərbaycanın Qarabağ bölgəsinə qanuni və şəffaf şəkildə çatdırılmasını təmin etmək üçün Ermənistanın yaratdığı maneələrin qəti şəkildə aradan qaldırılmasının labüdlüyünü bir daha göstərdi.

Bundan başqa, Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının bəzi üzv dövlətlər tərəfindən etirafı regionda müəyyən çağırışların aradan qaldırılması istiqamətində də perspektivli addımdır.

Azərbaycanın müzakirələrdə qeyd etdiyi kimi, ölkəmiz Ermənistana iki ölkənin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında sülh təklif edib. Digər tərəfdən, Qarabağ bölgəsində yaşayan erməniəsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş, habelə Azərbaycanın tərəfdar çıxdığı insan hüquqları üzrə bütün müvafiq beynəlxalq mexanizmlərə uyğun olaraq, bütün hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaş kimi reinteqrasiya siyasətini aparır. Hər iki istiqamətə sadiq olduğumuz kimi, suverenliyimizi və ərazi bütövlüyümüzü BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit edilmiş bütün qanuni vasitələrlə qorumaqda da əzmliyik.

Azərbaycan normallaşma gündəliyinin irəli aparılmasında həqiqətən maraqlı olan və bununla da regionda çoxdan gözlənilən sülh və sabitliyə nail olmaq üçün öz töhfəsini vermək istəyən, habelə bu istiqamətdə müvəffəq olan bütün tərəflərlə konstruktiv qarşılıqlı fəaliyyətə sadiqdir.

# ABŞ-nin ikiüzlü siyasətinin çoxüzlü məkri

## Ağ Evin hədəfində Azərbaycanın müstəqil siyasətidir

*Əvvəli 1-ci səh.*

Azərbaycan Avrasiyada həyata keçirdiyi enerji siyasətində, beynəlxalq təhlükəsizliyin təminatında hər zaman ABŞ-ni özünə etibarlı tərəfdaş sayıb və daim bu prosesdə səmimi olub. Eləcə də rəsmi Vaşinqton Azərbaycanı sözdə yaxın müttəfiq elan edib. Lakin Ağ Ev bütün zamanlarda qeyri-səmimi olmaqla, sözdə Azərbaycanı dəstəkləsə də, "saman altından su yeridib" desək yanılmarıq.

Tarixin arxivinə gömülmüş ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ daim Ermənistan-Azərbaycan münaqişəsinin həllinə süni maneələr yaradıb, "tormozlayıcı amillər" formalaşdırıb. Qarabağdakı separatçı rejimə açıq dəstək verib, maliyyə yardımları ayırıb.

Azərbaycanda hər zaman "inqilab", "çevriliş" cəhdlərinin dəstəkçisi, əsas maliyyə sponsoru olub. Qlobal miqyasda antiazərbaycançı şəbəkənin maliyyə, ideya dəstəkçisi kimi fəaliyyət göstərib. Azərbaycanda "QHT" adı ilə fəaliyyət göstərən destruktiv qüvvələrə mütəmadi olaraq qanunlara əsaslanan yox, Azərbaycanın maraqlarına zidd fəaliyyət göstərməyi təşviq edib. Zaman-zaman Azərbaycanda daxili sabitliyi pozmaq, gərginləşdirmək ABŞ-nin sanki Qafqaz siyasətinin əsas ana xətti olub.

Ümumiyyətlə, heç vaxt ABŞ-nin dünyada daimi strateji tərəfdaşı, davamlı dostu olmayıb. Yalnız Amerikanın öz maraqları olub və bunun üçün istənilən vasitələrə əl atılıb.

Bütün bunlar onu göstərir ki, sözdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını, regionda sülhün bərqərar olunması istiqamətində ortaya qoyduğu mövqeyə davamlı dəstəyini bəyan edən Ağ Ev yenə də erməni lobbisi ilə iş birliyindədir

Sözü və əməli heç vaxt üst-üstə düşməyən ABŞ ənənəsinə sadiq qalaraq yenə də ikili oyun oynayır. Son günlərdə rəsmi dairələrə yaxın "Vaşinqton post" qəzetində Azərbaycana qarşı ardıcıl materialların verilməsi bunun əyani sübutudur. Bu qəzet qısa müddət ərzində ölkəmizlə bağlı sifariş əsasında iki qərəzli məqalə dərc edib. Yəni Ağ Ev "Vaşinqton post" və bu kimi KİV-lər vasitəsi ilə Azərbaycanın müstəqil siyasətinə təsir göstərməyə çalışır. Bu kontekstdə bir məqam yada düşür. Onilliklər öncə soyuq müharibə zamanı ABŞ ilə SSRİ arasında ideoloji-informasiya zəminində aparılan müharibədə sovetlərin üslubunu, dəstxətini indi Ağ Ev davam etdirir.

Digər tərəfdən, Dövlət Departamentinin hər il açıqladığı dünyada dini azadlıqların vəziyyətinə dair hesabatlarında Azərbaycanla bağlı həqiqətdən uzaq iddialar öz əksini tapır. Bunun açıq-aşkar qərəzli mövqe olduğu hər kəsə bəllidir. Çünki həmin "hesabatlarda" heç vaxt erməni barbarlığından bir cümlə belə yer almır. Bütün bunlar Ağ Evin "ağ yalan"larının və "qara oyun"larının göstəricisidir.

Amma Azərbaycanla təmaslar zamanı ABŞ rəsmiləri belə təsəvvür formalaşdırmağa çalışırlar ki, bu ölkədə antiazərbaycançı mövqe ayrı-ayrı konqresmenlərin lobbiçilik fəaliyyəti ilə məhdudlaşır. Əslində isə, belə deyil. Görünən odur ki, bütün bunlar bir mərkəzdən idarə olunur.

### ABŞ Ukraynanı da aldadıb yarıyolda qoydu

Bu gün ABŞ bütün dünyaya "demokratiya" yaymaq iddiasında olsa da, bu iddianın ziddiyyətli bir tarixə sahib olduğunu qeyd etmək yerinə düşər. Çünki ABŞ-nin İraq, Əfqanıstan, Liviya, Suriya kimi ölkələrə "bəxş etdiyi" "demokratiya" uzun illər məhz dünyanın gözü qarşısında baş verib. Üstəlik, ABŞ hər zaman bu demokratiyanı güc hesabına yaymağı özünə rəva bilib. Sadaladığımız bütün hallarda ABŞ-nin iddia etdiyi demokratiyadan əvvəl onun ordusu okeanın bu tayına gəlib.

ABŞ-nin yaymağa çalışdığı demokratiya hər dəfə on, yüz minlərlə insanın ölümü və xaosla nəticələnib. Ən sadə halda isə ABŞ "demokratiya" adı altında dünyada bir çox çevriliş cəhdinin arxasında dayanan əsas fiqur olub.

Ağ Evin məkrli oyunları yalnız bunlarla yekunlaşmır. Dövlətlərin daxili işlərinə qarışmaqla ara qızışdırır, müharibə ocaqları yaradır və minlərlə günahsız insanların qətlə yetirilməsinə baiskar olur.



Bunu təkcə Ukraynanın timsalında aydın görmək mümkündür. Hər kəsə bəllidir ki, illərlə Ukraynanı müharibəyə sürükləyən, təhrik edən Ağ Ev sonunda istəyinə çatdı. Ukrayna kimi bir ölkəni böyük qanlı oyuna salaraq kənardan tamaşa etməyə başladı. Müharibədən öncə Ukraynaya vədlər verərək ona hərbi, siyasi və maliyyə dəstəyi göstərəcəyini desə də, sözünə tam əməl etmədi. Az qala hər gün milyardlarla dollar həcmində yardım ayrılacağı bəyan edilir, amma bu pullar hara gedir, necə xərclənir, heç kimin xəbəri yoxdur. Ukrayna müharibəyə başladıqdan sonra quru bəyanatlar verərək ona yalnız sözdə "dəstək" verməyə başladı. Kiyevin zəruri silah-sursat haqqında müraciətləri sanki eşidilmir, məsələ mümkün qədər uzadılır. Elə vəziyyət yaradılıb ki, münaqişə tərəfləri ölü nöqtədə qarşı-qarşıya dayanıblar, insan itkisinin sayı-hesabı yoxdur, müharibənin sonu isə, ümumiyyətlə, görünmür. Ukrayna iqtisadiyyatı çöküb, şəhərlər, kəndlər yer üzündən silinib, xalq dəhşətli faciəyə məruz qalıb, on minlərlə insan həlak olub, yüz minlərlə insan yaralanıb. Ukrayna xalqı bundan sonra uzun onilliklər müharibənin acı nəticəsini yaşayacaq. ABŞ vəd etdiyi real yardımı ləngitməklə, oyun oynamaqla Ukraynanın dövlətçiliyini məhv edir, ona tarixinin ən ağır günlərini yaşadır. Bu, ABŞ-nin dost saydığı ölkəyə göstərdiyi münasibətin real təzahürüdür. Öz dostuna belə münasibət göstərən ölkənin digərlərinə qarşı niyyəti nə ola bilər ki?!

### "Azadlıq ixracı" pərdəsi altında qanlı ssenarilər

Digərləri dedikdə, Ağ Evin "azadlıq ixracı" pərdəsi altında Afrikaya, şərq-müsəlman dünyasına gətirdiyi savaşı göstərə bilərik. Bu ölkənin "demokratikləşmə dalğası"nın əslində yeni ekspansiya hərəkatı və müasir müstəmləkəçilik siyasəti olduğunu bilmək üçün hansısa xüsusi araşdırmalara da lüzum yoxdur.

Ümumilikdə, son 30 il ərzində ABŞ başqa ölkələrin ərazisində 20-dən çox hərbi əməliyyatda iştirak edib, tez-tez öz müharibə prinsiplərini və çoxsaylı beynəlxalq müqavilələri pozub. ABŞ qüvvələri ən azı üç ölkədə dövlətçiliyi tamamilə məhv edib, bu dövlətin sayəsində ən azı 10 ölkə suverenliyini itirib, bir milyondan çox mülki şəxs öldürülüb, on milyonlarla insan evlərini tərk etmək məcburiyyətində qalıb. ABŞ-nin Əfqanıstandakı 20 illik hərbi mövcudluğu ölkəni fəlakətli vəziyyətə salıb, İraqı faktiki olaraq parçalayıb, Suriyanı təhrik etdiyi vətəndaş müharibəsi böyük dağıntılar və insan itkiləri ilə nəticələnib, Ukraynanı Rusiya ilə üz-üzə qoyub və nəticədə Avropanın mərkəzində dəhşətli müharibəyə yol açıb.

Latın Amerikasında, Afrikada və Yaxın Şərqdə müstəqil siyasət yürüdən dövlətləri vətəndaş qarşıdurması və qanlı toqquşma arenasına çevirən ABŞ bu gün də eyni ssenarini davam etdirir. Həyata keçirilən hərbi təcavüzün, hakimiyyət çevrilişlərinin, vətəndaş qarşıdurmalarının, iqtisadi və sosial fəlakətin nəticəsində, vaxtilə sabit və normal inkişaf edən İraq, Suriya, Misir, Yəmən və digər dövlətlər yaşamaq üçün təhlükəli ərazilərə çevrildilər, bu ölkələrin yüz minlərlə sakini isə anarxiya, xaos və ölüm təhdidindən yaxa qurtarmaq üçün inkişaf etmiş Avropaya pənah aparmağa başladı. Ancaq burada da onlar sərt miqrasiya siyasəti, güclü dini və milli ayrı-seçkilik təzahürləri ilə üzləşdilər. Miqrasiya dalğası guya kütləvi qırğın silahının olduğu, amma heç nə tapılmadığı İraqa hərbi təcavüz kimi ağılsız ideyanın nəticəsi idi. Həm də bu, Liviyada, sonra isə Suriyada "qayda-qanun" yaratmaq kimi cəhdlərin reallaşdırılması nəticəsində baş verdi və bunun sayəsində həmin ölkələrin ərazisində terrorçu rejimlər yarandı. Bunlar, əlbəttə ki, ABŞ-nin "demokratikləşmə siyasətinin" ağır nəticələridir.

ABŞ-nin Əfqanıstandakı 20 illik hərbi mövcudluğu ölkəni fəlakətli vəziyyətə salması ilə nəticələndi. Öz siyasi sistemini Əfqanıstana tətbiq etməyə çalışan rəsmi Vaşinqtonun bu cəhdi uğursuz oldu. Çünki ABŞ qoşunlarının 20 illik mövcudluğu heç bir nəticə vermədi və işğalından əvvəl ölkəyə nəzarət edən radikal qüvvələr yenidən hakimiyyətə qayıtdı. BMT-nin məlumatına görə, hazırda dünyada ən ciddi ərzaq böhranı məhz Əfqanıstanda müşahidə olunur, bu ölkədə 23 milyondan çox insanın yardıma ehtiyacı var. Əfqan əhalisinin 95 faizindən çoxunun kifayət qədər qidası yoxdur. Belə vəziyyət həm də Amerikanın bu ölkədəki varlığının nəticəsidir. Keçmiş SSRİ-dən fərqli olaraq, ABŞ Mərkəzi Asiya ölkələrində mülki infrastrukturun inkişafı ilə heç vaxt məşğul olmayıb, yalnız hərbi və siyasi amillərə diqqət yetirib.

ABŞ-nin Yaxın Şərq və Mərkəzi Asiyada törətdiyi cinayətlərə diqqət yetirsək, yetərincə dəhşətli faktlar göstərə bilərik. Məhz ABŞ hərbçilərinin kimyəvi silahdan, xüsusən də ağ fosfordan və tükənmiş urandan istifadə etməsi nəticəsində İraq əhalisinə böyük genetik ziyan dəyib.

Çoxsaylı araşdırmalara görə, 2004-cü ildə ABŞ-nin bombaladığı İraqın Fəllucə şəhərində uşaq ölümü, xərçəng və leykemiyanın kəskin artması, 1945-ci ildə Xirosima və Naqasakiyə atılan atom bombalarından sağ çıxanların bildirdiyi göstəriciləri üstələyir. Ağ fosfordan əlavə, ABŞ İraqda zənginləşmiş urandan, hərbi mühəndislərin mərminin nüfuzunu əhəmiyyətli dərəcədə artırdığı (şualanma təxminən 4,5 milyard il yarım ömrünə malik olduğuna iddia edilir) radioaktiv elementdən geniş istifadə edib. ABŞ ordusunun məlumatına görə, İraqda mülki obyektlərə 29166 raket və bomba zərbəsi endirilib.

Son məlumatlara əsasən, təkcə 2023-cü ilin fevral ayında İraqda müxtəlif terror aktları nəticəsində ən azı 52 mülki şəxs güllələnib və ya öldürülüb. Əlbəttə ki, bütün bunlar müharibənin izləridir.

Yaxın Şərq insan haqları qruplarının açıqladığı hesabata görə, ABŞ-nin Liviyada rejim dəyişikliyi uğrunda apardığı səkkiz aylıq müharibədə hərbi cinayətlər törətdiyinə dair güclü dəlillər var. 2011-ci il avqustun 9-da ABŞ hərbi qüvvələri Liviya paytaxtı yaxınlığında yerləşən Majer kəndinə endirdiyi zərbələr nəticəsində 33-ü uşaq olmaqla azı 85 mülki şəxs həlak olub.

### Dünyanın bəlası Ağ Ev öz vətəndaşlarının da qatilidir

Etiraf edilməlidir ki, ABŞ təkcə "dostlarına" qarşı belə münasibət göstərmir. Elə öz xalqına, öz ölkəsinin insanlarına qarşı da rasizm siyasətini həyata keçirir. Bunu real faktlar da sübut edir. Son onilliklərdə Ağ Evin yürütdüyü siyasətə görə ABŞ dünyada azadlıq anlayışının jandarmı kimi qəbul olunur. Özünü bəzən "ədalət carçısı" kimi təqdim etməyə çalışan bu ölkədə demokratiya anlayışı onsuz da möhkəm zəminə əsaslanmırdı. Hətta bir çox mütəxəssislər hesab edirlər ki, ABŞ-nin müstəqillik tarixində "demokratiya" - xalqın hakimiyyəti, deyə bir anlayış, ümumiyyətlə, mövcud olmayıb.

Amerika statistik nəşrlərinin rəsmi məlumatlarına görə, ABŞ-də cinayət nisbəti son illərdə durmadan artır. Yalnız 2021-ci ildə qətllərin sayı 7 faiz, 2022-ci ildə isə 9 faiz artıb. Eyni zamanda yerli ekspertlər yaxın illərdə kriminal vəziyyətin ciddi şəkildə yaxşılaşacağını proqnozlaşdırmırlar.

FTB-nin məlumatına görə, ABŞ şəhərlərində zorakılıq cinayətləri son on ildə orta hesabla 12 faiz artıb. Adamöldürmə, zorlama və ağır hücumlar isə 25 faiz artıb. 2010-cu ildən 2020-ci ilə qədər ABŞ-nin kiçik şəhərlərində (100.000 ilə 249.999 arasında əhali) adamöldürmə nisbəti orta hesabla 80 faizdən çox artıb, adəti üzrə isə kiçik şəhərlər daha təhlükəsiz şəhərlər sayılırdı. Yerli cinayətkarlığın artım templərinin statistikası həm də onu göstərir ki, ABŞ-də qaradərililərə, digər etnik mənsubiyyətlərə və dinlərə qarşı irqi qərəzdən qaynaqlanan cinayətlərin göstəricisi durmadan yüksəlir. Ancaq bir il ərzində bu növ cinayət halları 100 faiz çoxalıb. Qətllərin yarıdan çoxu antisemitizm və islamafob təzahürlü olub. Hesabatda göstərilir ki, irqi motivli nifrət cinayətlərinin ən çox sayı - təxminən 2,233-ü afroamerikalılara qarşı qərəzli münasibətdən irəli gəlir.

Göründüyü kimi, ABŞ başqaları ilə yanaşı, öz ölkəsinin insanlarının da qatilidir.

### Azərbaycana nəyisə diktə edə bilən qüvvə yoxdur

Ancaq bu ölkədən fərqli olaraq bu gün Azərbaycandakı daxili sabitlik, ölkəmizin artan nüfuzu dünya dövlətlərinin, xüsusən də böyük investorların ölkəmizə olan diqqətini daha da artırır. Bütün bu reallıqları şərtləndirən isə İlham Əliyevin humanizm prinsiplərinə əsaslanan siyasətidir. Məhz Azərbaycan Prezidentinin yürütdüyü tam müstəqil siyasət ölkəmizi dünyada etibarlı tərəfdaş kimi tanıdıb. Azərbaycanın geosiyasi nüfuzu getdikcə yüksəlməkdədir. Tarixinin ən qüdrətli Azərbaycanına qarşı aparılan məkrli oyunların, qarayaxma kampaniyalarının səbəbi də məhz budur. Azərbaycanı sevməyən, uğurlarını həzm edə bilməyən qüvvələr daim bu çirkinliklərə əl atıblar. Lakin onların heç bir effekti olmayıb. Çünki bu gün İlham Əliyevin yaratdığı qüdrətli Azərbaycan istənilən "hücumun" qarşısını almağa qadirdir və ölkəmizlə hədə-qorxu, təhdid dili ilə danışmaq qeyri-mümkündür. Elə İlham Əliyevin dediyi kimi, "Bu gün dünyada elə bir qüvvə yoxdur ki, hanısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki mən Prezidentəm, belə qüvvə olmayacaqdır".

Bu, İlham Əliyev qətiyyəti, Azərbaycanın dəyişməz mövqeyidir.

***"Azərbaycan" qəzeti redaksiyası***

# İrəvanda təşviş və xof artıb: "Ararat Mirzoyan hansı üzlə BMT-dən geri qayıdır?"

**Beynəlxalq platformalarda daim şantaj diplomatiyasını əlində bayraq edərək müxtəlif absurd fikirlərlə tribunalara üz tutan Hayastanın bütün iddiaları daim iflasa uğrayıb. Elə bu günlərdə İrəvanın xahişi ilə keçirilən BMT TŞ-nin yığıncağında olduğu kimi. Yenə də haylar məğlubiyyətə düçar oldular. Hayastanın sözügedən ali orqanının manipulyasiya və istismar etmək səyləri iflasa uğradı.**

Azərbaycan tərəfinin kəsərli arqumentləri qarşısında dili topuq vuran Hayastanın xarici işlər naziri Ararat Mirzoyan suyu süzülə-süzülə geri qayıtdı. Çünki BMT-nin elə bir mandatı yoxdur və ən ümdəsi isə bütün hay-küyə, ajiotaja baxmayaraq, Qarabağın dağlıq hissəsində yaşayan ermənilər iddia edildiyi kimi, "soyqırımı təhlükəsi qarşısında" deyillər.

Bununla bağlı erməni sosial şəbəkə istifadəçiləri səhifələrdə və paylaşılan statuslarda Nikol Paşinyanın növbəti dəfə Azərbaycan Prezidentinə biabırcasına məğlub olduğunu etiraf edirlər. Hayastanın xəbər agentliklərinin sosial media səhifələrində "Dostlar, Hayastan və Azərbaycan rəsmilərinin BMT-dəki çıxışlarından nə fikrə gəldiniz" sualına çoxlu sayda münasibət bildirilib.

Siyasi ekspert Tatev Ayrapetyan qeyd edib ki, BMT TŞ-nin iclasında müzakirə və əksər çıxışlar Qarabağdakı vəziyyətin intensivliyinə uyğun deyildi. Çıxışların çoxu təkrar idi: "Bəzi ölkələrin nümayəndələri Laçından başqa marşrutlardan istifadə etməyə çağırıb, bəziləri isə bunun üçün Ağdam yolunu göstəriblər. Hayastan tərəfinin nümayəndələri onların mandatlarının olmadığını deyib. Bu mövzu ilə bağlı İrəvan aydın əks-arqumentlər təqdim edə bilmir. Azərbaycan tərəfi isə çox ustalıqla bu məsələni tez bir zamanda gündəmə gətirib. Xülasə olaraq deyə bilərəm ki, real fəaliyyətdən söhbət getməyənə qədər Bakı beynəlxalq zənglərə qulaq asmayacaq və dəhlizin açılışına getməyəcək".

Saak Baqdasaryan adlı birinin şərhi çoxlu bəyənmə ilə yadda qalıb: "Dostlar, bilmirəm fikir verdiniz ya yox, bizim nümayəndə danışanda zalda hamını əsnəmək tutmuşdu (gülüş işarəsi). Çətin olsa da, düzünü demək lazımdır. Ararat Mirzoyan Azərbaycanı yaxşı, inandırıcı vura bilmədi. Ancaq fikir verin, Azərbaycan tərəfi danışanda bütün zal diqqətlə ona qulaq asırdı. Çünki ilk dəqiqədən etibarən faktlarla danışdı. Mirzoyanın onun cavabını verməyə curəti çatmadı. Çünki Paşinyan kimi qorxaqdır. Ancaq gücü ölkəmizdəki kasıb insanlara çatır. Onlar üz qarasıdırlar. Mənim bu şərhimə qeyri-etik ifadələr işlədənlər barəsində şikayət edəcəyəm. Xəbəriniz olsun!"

Saakın şərhinə fikir bildirən sahibkar Aşot Qriqoryanın "Qardaş, səninlə tamamilə razıyam. Həmişə olduğu kimi bizimkilər yenə sönük danışdı. Sanki iclası yola vermək üçün ora çıxmışdı. Stepanakertdə (Xankəndi red.) marketim var. Normal da alış-veriş gedir. Dünən insanlarla danışmışam, deyirlər artıq bu oyunlardan boğaza yığılmışıq. Paşinyan imkan versə, rahat yaşayardıq. Biz bədbəxtlərin problemlərindən, işsizlikdən, kasıbçılığın həlli yollarından danışmaq əvəzinə ancaq mənasız söhbətlər edirlər. Biri var faktlarla danışasan, qarşındakını aciz duruma salasan, biri də var boşboğazlıq edəsən. Bizim nazir çıxış etdikcə özünü daha da səviyyədən salır. Kimlərsə məni qınasa da, söysə də, bunu açıq şəkildə, çəkinmədən yazacağam: İlham Əliyev Hayastanı da, Paşinyanı da həmişə yerə vurub, sonra da təpikləyib" rəyi bir çoxunda qıcıq yaratsa da, əksəriyyətin bəyənməsinə səbəb olub.

Qaspar Levonisyan adlı birinin tvitter sosial şəbəkəsindəki paylaşımı maraqla qarşılanıb: "Acı reallıq olsa da, qəbul edək ki, Hayastanın BMT tamaşası anşlaqsız keçdi. Bizimkilərin aktyorluğuna yalnız biz zavallı insanlar inana bilərik. Mirzoyan hansı üzlə geri qayıdacaq? Gələcəyi olmayan ölkədə ümidlə yaşamaq... Heç bir ölkəyə belə rəhbər arzulamıram".

Manvel Ohanyan adlı biri isə paylaşılan xəbərlərə yazdığı maraqlı rəyi ilə diqqət çəkib: "Bizim nə vaxt normal rəhbərimiz olub ki, indi də olsun. Danışanda dilləri topuq vurur. Mirzoyan BMT-də hansı üzlə çıxış edib axı? Gündən-günə "inkişaf edən" Hayastandan? Stepanakertdəki (Xankəndi red.) qohumumla danışdım, deyir bizimkilər imkan vermir ki, rahat yaşayaq. İndi də yalan danışmaq üzrə dünya birincisi olan Mirzoyan bilməli idi ki, çıxış edən Azərbaycan tərəfi həmişəki kimi daha yaxşı danışacaq. Düşmən olsa da, düzünü deyək. Axı o, bunu bacarır. Bunu mən, adi maşın ustası bilirəm, Paşinyan bilmir?"

Yuxarıda qeyd etdiyimiz statuslara və şərhlərə daha çoxunu əlavə etmək olar. Göründüyü kimi, Azərbaycanın BMT tribunasında növbəti dəfə əldə etdiyi uğurlardan şok yaşayan ermənilər sosial şəbəkələrdə Paşinyandan hesab sorurlar. Və yaxşı anlayırlar ki, onların qarşısında dövrünün böyük siyasətçisi, sərkərdəsi olan Prezident İlham Əliyev var.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# REGİONLAR

## Tərtərin Talış kəndində 30 ildən sonra ilk körpə dünyaya gəlib

**Tərtərin işğaldan azad edilmiş Talış kəndində 30 ildən sonra körpə dünyaya gəlib.**

Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Mətbuat xidmətindən bildirilib ki, Camalovlar ailəsində doğulan uşağa Zəhra adı verilib. İki oğul övladından sonra dünyaya göz açan Zəhra ailəsinin və yaxınlarının sevincinə səbəb olub.

Qeyd edək ki, Talış kəndinə köç bu ilin mart ayında reallaşıb. Kənddə hazırda 20 ailə yaşayır.

## İşğaldan azad olunmuş yaylaqlarımız keçmiş günlərinə qayıdır



**Bu il işğaldan azad edilmiş ərazilərdə yerləşən yaylaqlara rekord sayda arıçılıq və qoyunçuluq təsərrüfatlarının köçürülməsi təmin edilib.**

Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, 3700-ə yaxın təsərrüfat mövsümü Laçın, Kəlbəcər, Qubadlı, Füzuli, Xocavənd, Cəbrayıl və Zəngilan rayonlarının yaylaq ərazilərində keçiriblər.

Cari mövsüm 1177 qoyunçuluq təsərrüfatı Laçın və Kəlbəcər yaylaqlarına qalxıb. Bu il Kəlbəcər yaylaqlarında 748, Laçın yaylaqlarında isə 429 qoyunçuluq təsərrüfatları minalardan təmizlənmiş ərazilərdə yerləşdirilib. Laçın və Kəlbəcər yaylaqlarına ümumilikdə 311 minə yaxın xırdabaşlı heyvan aparılıb. Əvvəlki illərdə olduğu kimi, ən çox xırdabaşlı heyvan Kəlbəcər yaylaqlarındadır - 195936 baş. Laçın yaylaqlarına isə 114970 baş davar aparılıb. Qəbul olunmuş qaydalara əsasən, fermerlər yaylaqlara təsərrüfatdakı xırdabuynuzlu heyvanların sayının 10 faizi qədər iribuynuzlu heyvan da apara bilərlər. Bununla da 2023-cü il yaylaq mövsümündə hər iki rayonun yay otlaqlarına ümumilikdə 350 min başa yaxın heyvanın aparılması təmin edilib.

Başa çatmaqda olan yaylaq mövsümündə azad olunmuş ərazilərə 125 minə yaxın arı ailəsi aparılıb. Bu il arıçılar öz təsərrüfatlarını işğaldan azad olunmuş 7 rayonun yaylaqlarına köçürüblər. Kəlbəcər rayonundan 1603, Laçından 808, Qubadlıdan 55, Füzulidən 19, Xocavənddən 10, Cəbrayıldan 18, Zəngilandan 8 arıçı fermer bu il arıçılıq təsərrüfatını azad olunmuş ərazilərdəki yaylaqlara aparıb. Hazırda Kəlbəcər yaylaqlarında 77 min, Laçın yaylaqlarında 43 min, digər beş rayonun yaylaqlarında isə 5 minə yaxın arı ailəsi var.

Yaylaq mövsümü başa çatdıqdan sonra Kəlbəcər, Laçın və digər rayonlardakı arıçılıq və qoyunçuluq təsərrüfatlarının Aran bölgəsinə qayıtması nəzərdə tutulur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## MİDA Şirvanda da yaşayış kompleksi tikəcək





**Şirvan şəhərində sakinlərin mənzilə olan ehtiyacının güzəştli şərtlərlə ödənilməsi üçün çoxmənzilli binalardan ibarət yaşayış kompleksinin layihələndirmə işləri aparılmışdır.**

Layihəyə əsasən, 8,11 hektarda 1264 mənzildən ibarət 25 çoxmənzilli yaşayış binasının (9 və 12 mərtəbəli), 140 yerlik uşaq bağçasının, məktəb binasının, 2 transformator yarımstansiyasının, 5 içməli və yanğın su anbarının və nasosxananın tikintisi planlaşdırılıb.

Artıq Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyindəki "MİDA" MMC tərəfindən mühəndis hazırlıq işləri çərçivəsində yeraltı elektrik xətləri çəkilmiş, müvəqqəti beton zavodunun quraşdırılmasına başlanılmışdır.

Xatırladaq ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli fərmanına əsasən, Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərində (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Ölkə əhalisinin 45,4 faizi kənddə yaşayır

**2019-cu ildə keçirilmiş əhalinin siyahıyaalınmasının nəticəsi əsasında yenidən hesablanmış əhalinin sayı 2023-cü il iyul ayının 1-i vəziyyətinə Azərbaycanın Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazisindəki əhali istisna edilməklə 10 milyon 151 min 517 nəfər olmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkə əhalisinin 54,6 faizini şəhər, 45,4 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Hazırda orta hesabla hər 1000 kişiyə 1010 qadın düşür.

Cari ilin yanvar-iyun aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 1907 nəfərin gəldiyi, Azərbaycandan isə 1288 nəfərin getdiyi qeydə alınmışdır. Miqrasiya saldosu ölkə üzrə müsbət 619 nəfər olmuşdur.

◆ Deməsək olmur

## Gözəlliyi gözdən salmayın



**Azərbaycanın təbiət gözəlliklərindən söz düşəndə, şübhəsiz ki, ilk olaraq Göygöl yada düşür. Bu füsunkar məkanın qapıları ətrafı yenidən qurulandan sonra artıq bir neçə ildir turistlərin üzünə açıqdır. Elə həmin vaxtdan da Azərbaycanın ən ecazkar təbiət mənzərələrindən olan Göygölə gələn turistlərin ardı-arası kəsilmir.**



Dəniz səviyyəsindən 1556 metr yüksəklikdə yerləşən, uzunluğu 2800, eni 1000 metr olan gölün dərinliyi 96 metrə çatır. Onu da bildirək ki, bu ərazidə Göygöllə yanaşı, Maral göl, Zəli göl, Qara göl, Ördək göl, Çoban göl və s. göllər də mövcuddur. Amma onların gözü Göygöldür. Göygölün yerləşdiyi ərazinin flora və faunası çox zəngindir. Ərazidə qonur ayı, Qafqaz maralı, cüyür, bezoar keçiləri kimi heyvanlar məskən salıb. Onların qorunması dövlət tərəfindən yüksək səviyyədə təmin edilmişdir.

Hazırda əraziyə turistlərin rahat keçidini təmin etmək üçün xüsusi buraxılış məntəqəsi yaradılmışdır. Adambaşına 2, avtomobil üçün isə 1 manat ödəməklə maşınla gölə yaxın əraziyəcən getmək olur. Qalan məsafə piyada gedilməlidir.

Təbii ki, biz də elə etdik. Maşınımızı meydançada saxlayıb gölə tərəf gedən yola çıxdıq. İlk rastlaşdığımız şlaqbaum oldu. Bu onu göstərirdi ki, nəqliyyat vasitələrinin gölün yaxınlığına buraxılması qadağandır. Nə demək olar, təqdirediləsi yasaqdır, təbiəti qorumaq lazımdır. Lakin bir qədər həmin şlaqbaumdan aralanandan sonra gördük ki, ərazidə çoxlu avtomobil var. Gölə tərəf düşdükcə isə onların sayı artırdı. Hətta piyada ziyarətçilər tez-tez yolun kənarına çəkilib avtomobillərə yol verməyə məcbur olurdular. Deməli, qadağa hamı üçün deyilmiş, burada da ondan "yan keçmək" mümkünmüş.

Nəhayət, gölə çatdıq. Sahildə çoxlu sayda yerli və xarici turist vardı. Əksəriyyəti buradakı kafedə əyləşib təbiətin təkrarsız möcüzəsini seyr edirdi. Bu möcüzə sanki onlara kafedəki qiymətlərin bahalığını da unutdurmuşdu.

Qeyd edək ki, xüsusən yay aylarında gün ərzində bura yüzlərlə turist gəlir. Onların arasında uşaq da var, ahıl da. Lakin ərazidə bir dənə də olsun sanitar qovşağı yoxdur. Olanının isə ətrafı metal torla hasara alınmış, qapıları bağlanmışdı. Kafedə işləyən bir nəfərlə (adının çəkilməsini istəmədi) söhbət etdik. Dedi ki, neçə ildir burada çalışır, həmişə də sanitar qovşağının olmamasından istər xarici, istərsə də yerli turistlərin narazılığını eşidir: "Rəhbərliyə desək də, xeyri yoxdur. Deyirlər, Ekologiya və Təbii Sərvətlər Nazirliyi icazə vermir". Niyəsini isə izah edə bilmədi. Görünür, səbəbi-filanı yoxdur. Sadəcə, kefləri belə buyurub.

Nəhayət, bir qədər sonra geri dönmək istədik. Lakin yoxuş sərt idi. Oranı qalxmaq hər adamın işi deyildi. O üzdən qərara gəldik ki, buradakı avtomobilin xidmətindən istifadə edək. Belə də etdik və... cəmi 300 metrlik məsafə üçün sürücü bizdən 5 manat (!) istədi. Ödəməkdən savayı əlacımız yox idi. Yaxşı "biznes"dir. Fikirləşib tapana "bərəkallah".



Bütün bunlardan sonra yolboyu düşünürdük: görəsən, hər gün ziyarətçilərdən, avtomobillərdən, aşağısəviyyəli xidmətlərdən yığılan bu qədər vəsait hara xərclənir? Sınmış işıq fanarları, kələ-kötür piyada yolları niyə təmir edilmir? Nə baş verib ki, hətta gölün kənarında cəngəlliyi xatırladan qamışlıq da, vaxtilə göldə istifadə edilən, indi isə yararsız hala düşən qayıqlar da Milli Parkın rəhbərliyinin gözündən uzaq düşüb?

Qanqaraldan məsələlərdən biri də buradakı iaşə obyektləri oldu. Həmin obyektlər nə görkəminə, nə də xidmətinə görə dünyaca məşhur Göygölə yaraşmır. Halbuki onların yerində gölün, Gəncənin, Azərbaycanın tarixini əks etdirən kitabçalar, xatirə suvenirləri satıla bilərdi. Axı, təbiət gözəli olan Göygölə gələn xarici turistlər üçün tüstüsü ətrafı bürüyən kababdansa onlar daha çox lazımdır.

Hacıkənd Göygöl-Gəncə yolunun üstündə yerləşir. Bu ərazilər də eyni vəziyyətdədir. Hara baxırsan, primitiv kababxana və kafedir. Son bir neçə ildə belə obyektlərin sayı daha da artıb. Qiymətlərindən isə danışmağa dəyməz. Bircə onu deyək ki, burada şam, yaxud nahar etmək hər kəsin cibinə uyğun deyil. Deyinəndə də bahalığı bəhanə gətirirlər.

Bunları gördükdən sonra özümüzün özümüzə (çünki əlaqədar qurumlara səsimiz çatmır) sual verməkdən savayı əlacımız qalmır: görəsən, bizdə (hər halda Göygöl bölgəsində) normal turizm mədəniyyəti nə vaxt formalaşacaq?! Ecazkar təbiətimiz, zəngin flora və faunamız ola-ola, niyə dincəlməyə düz-əməlli yer tapmırıq? Yəqin ona görə ki, bizim üçün yaşıl meşə, sərin bulaq, dupduru dağ çayı yalnız orada kababxana tikmək üçündür. Çünki biz təbiətə də qazanc mənbəyi kimi baxırıq. Başa düşmürük ki, turizm təkcə "lülə, tikə, basdırma" deyil, həm də ölkəmizin imici, xalqımızın mədəniyyəti, dövlətimizin siyasətidir. Bunun, yəni sivil, dünyasəviyyəli turizm üçün şəraitimiz və imkanımız yetərincədir, üstəlik də Azərbaycanda turizmin inkişafı yönündə yaradılan şərait.

Daha nə lazımdır?! Təbii ki, istək, canıyananlıq və bir də məsuliyyət.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Kənd təsərrüfatında ümumi məhsul istehsalı 3,3 faiz artmışdır

**Dövlət Statistika Komitəsi cari ilin 7 ayı üzrə aqrar sektordakı rəqəmləri açıqlayıb. Bildirilir ki, kənd təsərrüfatında məhsul yığımı davam edir.**

Avqust ayının 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 2 milyon 901,5 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 1,7 faiz çox dənli və dənli paxlalı bitkilər, 664,9 min ton (1,8 faiz az) kartof, 1 milyon 242,8 min ton (4 faiz çox) tərəvəz, 388,8 min ton (keçən illə eyni səviyyədə) bostan məhsulları, 314,9 min ton (1,9 faiz çox) meyvə və giləmeyvə, 8,1 min ton (5 faiz çox) üzüm, 2,9 min ton (0,5 faiz çox) günəbaxan, 9 min ton (53,6 faiz çox) şəkər çuğunduru, 1,8 min ton (0,7 faiz çox) tütün, 717,2 ton (15,4 faiz çox) yaşıl çay yarpağı yığılmışdır.

Heyvandarlıq sahəsinə gəldikdə, bu dövrdə diri çəkidə 327 min ton ət, 1 milyon 305,8 min ton süd, 1 milyard 305,1 milyon ədəd yumurta, 14,4 min ton yun, 356,6 ton barama istehsal olunmuşdur. 2022-ci ilin yanvar-iyul ayları ilə müqayisədə ət istehsalı 3,1, süd istehsalı 1,7, yumurta istehsalı 12, barama istehsalı 5,1 faiz artmış, yun istehsalı isə 2,6 faiz azalmışdır.

Beləliklə, cari ilin 7 ayı ərzində kənd təsərrüfatında ümumi məhsul istehsalı 3,3, o cümlədən heyvandarlıq məhsulları istehsalı 3,4, bitkiçilik məhsulları istehsalı 3,2 faiz artmışdır.

## Beyləqanda tarla seminarı keçirilib

**Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun Mil Təcrübə stansiyasında "Yerli və introduksiya olunmuş pambıq sortlarının quraqlığa, xəstəliklərə və şoranlığa davamlılığı" mövzusunda tarla seminarı keçirilib.**



Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin müdiri İmran Cümşüdov, Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktoru İbrahim Cəfərov, Atom Enerjisi üzrə Beynəlxalq Agentliyinin (AEBA) layihə koordinatoru Nəzakət İsmayılzadə, Dövlət Aqrar İnkişaf Mərkəzlərinin əməkdaşları, pambıqçı fermerlər, ölkəmizdə pambıq istehsalı ilə məşğul olan şirkətlərin nümayəndələri iştirak ediblər.

Tarla seminarında Atom Enerjisi üzrə Beynəlxalq Agentlik ilə əməkdaşlıq çərçivəsində Pakistandan ölkəmizə gətirilən toxum sortlarının və yerli sortların əkildiyi sahələrə baxış keçirilib, müvafiq sortların xəstəlik və zərərvericilərə, quraqlığa, şoranlığa davamlılıq məsələləri qiymətləndirilib, mümkün bioloji məhsul hesablanıb. Qeyd olunub ki, Pakistandan gətirilən "Super Cotton" sortu bütün bioloji, məhsuldarlıq və texniki göstəricilərinə görə digər sortlardan üstünlüyü ilə fərqlənir. Bu sort üzrə təcrübə əkinlərində orta məhsuldarlığın 85-90 s/ha olması gözlənilir. İnstitutun xətti ilə bu sortun toxumları becərilmə üçün bir sıra fermerlərə və pambıqçılıq ilə məşğul olan MMC-lərə də paylanılıb. Seminar iştirakçıları "Super Cotton" sortuna böyük maraq göstərib, gələn ilin əkinləri üçün toxum sifarişləri veriblər.

Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyinin Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) ilə əməkdaşlıq çərçivəsində 2017-2021-ci illəri əhatə edən "Xəstəliklərə, quraqlığa və şoranlığa davamlı mutant pambıq xətlərinin yaradılması" layihəsi üzrə işlər başa çatıb.

2021-ci ildən isə "Azərbaycanda pambıq istehsalı üzrə torpaq, qida maddələri və su ilə bağlı ağıllı kənd təsərrüfatının genişləndirilməsi" layihəsi üzrə işlərə başlanılıb. Hər iki layihə çərçivəsində Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutuna AEBA tərəfindən müvafiq laboratoriya avadanlıqları verilib.

*L.QULİYEV,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Bakının gözəl məkanları

**Havaların bu dərəcədə qızmar keçməsini bəlkə də çoxları birinci dəfədir görür. İsti yay fəslində iş və ailə qayğıları səbəbindən paytaxt sakinlərinin çoxu işdən sonrakı vaxtlarını və həftəsonu istirahət günlərini şəhərin park və bağlarında, Bakıətrafı qəsəbə və kəndlərindəki bağ evlərində, habelə Xəzəryanı çimərliklərdə keçirir.**



# Belə yerlərdə istirahət etmək insanlara zövq verir

Gündən-günə gözəlləşən, abadlaşan Bakı və onun ətraf qəsəbələrində insanların istirahətlərinin mənalı keçməsi üçün lazımi infrastruktur yaradılıb. Bakının gəzməli, istirahət etməli ünvanlarından söhbət düşəndə Xəzərin mirvari boyunbağısı adlandırılan Bakı bulvarını yada salmamaq mümkün deyil. 104 ilə yaxın yaşı olan, təxminən 10 il əvvələdək 3,5 hektarlıq ərazini əhatə edən Sahil bağı Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və sərəncamı əsasında genişləndirilərək 16 hektara çatdırılıb, cənnətməkan bir gəzinti-istirahət mərkəzinə çevrilib. Burada xan çinarın kölgəsində skamyada əyləşən ahıl müsahiblərimiz - paytaxt sakinləri pensiyaçı Telman Musayev və Nurəddin Adıgözəlovla tanış oluruq.

- İstilərlə necə yola gedirsiniz? - sualına ilk olaraq Telman müəllim cavab verir:

- Hər ikimiz indi də bu gözəl məkandayıq, əvvəllər Nəbatat bağına gedərdik, hər gün 2-3 saat gəzintidə olardıq.

Telman müəllim əli ilə Hökumət evini göstərərək:

- Uzun illər bu binada işləmişik, indi pensiyadayıq, yaşın bu vədəsində belə gəzinti bizim üçün əvəzolunmazdır. İnsafən desək, son illər Bakıda yaşıllıqların artırılmasına, yeni parklar, istirahət guşələri yaradılmasına xüsusi diqqət yetirilir.

Sözə qüvvət kimi Nurəddin müəllim dedi:

- Ötən ay dövlət başçısı və birinci xanım Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olarkən gördüm ki, bərpa işləri nəticəsində bağın ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Bildiyimə görə, burada 2500-dən çox ağac, gül, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən, geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam etdirilir. Bu, bizi çox sevindirir.

Xatırladaq ki, son illər əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

Bu sırada son illər Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir olunan parklardan biri də Biləcəri qəsəbəsindəki mədəniyyət-istirahət parkıdır. Prezident İlham Əliyevin Bakıətrafı kənd və qəsəbələrdə abadlıq və quruculuq işlərinə dair verdiyi tapşırıqların icrası ilə əlaqədar yenidən qurulan bu parkda yerli arxitektura elementlərini özündə əks etdirən mədəniyyət mərkəzinin binası yenidən tikilib. Sovetlər dönəmində Dəmiryolçular parkı kimi tanınan bu park da sakinlərin rahat istirahəti üçün lazımi avadanlıqlarla təchiz edilib. Parka axşamçağı gələnlər daha çox olur. Gəzinti iştirakçılarından dörd nəvəsi və həyat yoldaşı Təzəgül xanım və qonşuları ilə parka dincəlməyə gələn qəsəbə sakini, ağsaqqal Səməd müəllimlə həmsöhbət oluruq.

- Parkın yaxınlığındakı dəmiryolçular binasında yaşayırıq. Həyətimizin sakinləri, xüsusən də bir az yaşlı nəslin nümayəndələri bu parkı öz həyətləri, doğma yerləri bilirlər. Qonşularımdan eləsi var ki, oğlunun, ya qızının Xəzərsahili ərazilərdə bağ evi var, amma onların çoxu istirahət üçün bu parka üstünlük verir. Qollu-budaqlı ağacların kölgəsi, rahat oturacaqlar, sakitlik, hər yan gül-çiçək, havası da yüngül və təmizdir. Bir azdan müasir işıqlandırma sistemi parkın gecəsini gündüzə çevirəcək.

Dövlət başçısının, Heydər Əliyev Fondunun rəhbərliyinin tapşırığı ilə bu park beş-altı il öncə başdan-başa yenidən qurulub, ərazisində istirahət üçün belə rahat şərait yaradılıb. Bu gün Biləcəri qəsəbəsində 77 min nəfərdən çox əhali yaşayır, onların qəsəbədə gedəcəkləri yeganə istirahət yeri buradır. Ərazisi 4 hektar olan bu istirahət məkanında yerli şəraitə uyğun müxtəlif ağac və gül kolları əkilib. Yaşıllaşdırılan ərazidə avtomatik suvarma sistemi və fəvvarə quraşdırılıb, idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün süni örtüklü meydança yaradılıb.

Səməd Abdullayev və həyat yoldaşı Təzəgül xanım, əmək veteranı Raya Ağsaqqalova, Lüsya Sobludayeva, Lyudmila Kolyagina, Elmira Qasımova, Şəfiqə Əsgərova, Raya Qaydamak, Şahin və Gülşən İbayevlər, Laçına köçəcəkləri günü səbirsizliklə gözlədiklərini deyən Elnarə xanım və başqaları onlara bu şəraiti yaradan dövlətimizə və əməyi keçən insanlara ürəkdən minnətdar olduqlarını bildirdilər.

Təbii ki, yayın bu qızmar günlərində fərdi qaydada, kollektiv şəkildə, ailəliklə çimərliklərə istirahətə gedənlər də çoxdur. Bu gedişlər zamanı insanlar bəzən günvurma, həddindən artıq qol, bel və qıç nahiyələrində yanmalarla, müəyyən sanitar-gigiyenik problemlərlə, hətta faciələrlə üzləşirlər: Dəniz çimərliyində, çaylarda həyatları ilə vidalaşanlar da olur. Bu barədə Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru Allahverdi Musayev bizimlə telefon əlaqəsində bildirdi:

- Xəzərsahili çimərliklərdə səhər saatlarında və axşamtərəfi istirahətdə olmaq məqsədəmüvafiqdir. Bu zaman valideynlər azyaşlıları xüsusi nəzarətdə saxlamalıdırlar. Bəzən bir çox ailə dənizkənarı çimərlikdə olarkən qərara gəlirlər ki, günlərini daha maraqlı keçirmək üçün yaxınlıqda hovuzu olan istirahət mərkəzlərindən birinə üz tutsunlar. Bu zaman akvaparklar uşaqlar üçün istirahət baxımından cəlbedici olsa da, onların səhhətinə ciddi zərbə vura bilər: "Çimərliklərdə yerləşən akvaparklardan hər gün yüzlərlə insan istifadə edir. Ona görə də hovuzların suyu qaydalara uyğun şəkildə təmizlənməlidir. Müxtəlif dərmanlar tətbiq olunsa da, əksər sahibkarlar həmin dərmanlardan lazımi miqdarda istifadə etmirlər. Bu zaman hovuzun suyunda bağırsaq çöplərinin yayılmasına münbit şərait yaranır. Həmin su ağız vasitəsilə daxilə getdikdə uşaqlarda ishal, qusma, yüksək hərarətlə nəticələnən əlamətlər üzə çıxır. Buna görə də valideynlər uşaqlarını belə yerlərə apardıqda çox diqqətli olmalıdırlar. Əgər uşaq üzə bilmirsə, mütləq hovuzun suyunu udacaq. Bu da uşaqlarda bağırsaq infeksiyalarının yayılmasına gətirib çıxara bilər".

Müsahibimizin dediyinə görə, dənizlə müqayisədə uşaqlar üçün hovuzda istirahət daha təhlükəlidir.

Görünən odur ki, isti və qızmar yay günləri davam edir. Bu günlərdə gözəl məkanlarda istirahət etmək insanlara zövq verir. Çalışaq ki, boş vaxtlarımızı, həftəsonu istirahət günlərimizi problemsiz, xoş və mənalı keçirək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Kino və teatr xadimlərimiz

# Bənzərsiz aktyor



**O, teatr və kino tariximizdə silinməz izləri olan sənətkarlarımızdan biridir. Bu günədək səhnə, ekran ömrü verdiyi müxtəlif xarakterli, irili-xırdalı rolların hər birində bənzərsiz aktyor olduğunu təsdiq edib. Odur ki, oynadığı bütün rollar yaddaqalan olub və sənətkara tamaşaçı rəğbəti, sevgisi qazandırıb...**





Ramiz Məlikov (Məlik) 1943-cü il avqustun 4-də Bakı şəhərində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra, 1961-ci ildə sənədlərini Azərbaycan Dövlət Neft və Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft Akademiyası) verib. Ancaq instituta qəbul ola bilməyib. 1963-cü ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Dram və kino aktyorluğu fakültəsinə daxil olub. Görkəmli sənətkarlardan - Rza Təhmasibdən, Tofiq Kazımovdan, Məlik Dadaşovdan dərs alıb.

Ramiz 1967-ci ildə institutu bitirib. Həmin il Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının truppasına aktyor kimi qəbul edilib. Aktyorluqla bərabər, Əkrəm Əylislinin "Yastı təpə", Leonard Frankin "Yad adam", İlyas Əfəndiyevin "Xurşidbanu Natəvan" və başqa pyeslərin tamaşaya hazırlanmasında rejissor və rejissor assistenti kimi çalışıb.

Ramiz Məlik bir-birindən maraqlı rollarla teatr səhnəsinə çıxıb. "Hamlet"də Marsel, "Od gəlini"ndə Aqşin, "Almaz"da Barat, "Ulduz, yaxud Ədirnə fəthi"ndə Haris, "Mahnı dağlarda qaldı"da leytenant, "Sevgililərin cəhənnəmdə vüsalı"nda Mayis, "Yastı təpə"də Teymur, "Yad adam"da Valter, "İblis"də Arif, "Dəfn edilməmiş ölülər"də Jan, "Atabəylər"də Toğrul, "Kölgələrin oyunu"nda Antoni, "Gecə döyülən qapılar"da katib, "Kəllə"də Vilyams, "Ölüləri qəbiristanlıqda basdırın"da Qaçaq Süleyman, "Tələ"də mayor Metkaf, "Xurşidbanu Natəvan"da Mikayılov, "Yaşar"da İvanov kimi rolları ifa edib.

Ramiz Məlik Azərbaycan Dövlət Televiziyasının hazırladığı "Şərqin səhəri"ndə Bəhruz, "İnanmırsansa…"da Adil , "Kimin sualı var?"da Ədalət və başqa tamaşalarda müxtəlif xarakterli maraqlı rollar ifa edib.

Onun istedadı kinorejissorların da diqqətindən kənarda qalmayıb. Gənc yaşlarından kino çəkilişlərinə dəvət edilib. Həm də elə bir vaxtda ki, Azərbaycan kino sənəti qızıl dövrünü yaşayırdı. O illərdə ekranlaşdırılan filmlərin əksəriyyətinə bu günün tamaçıları da sevə-sevə baxırlar.

Ramiz Məlik onlarca filmdə çəkilib. "Bir cənub şəhərində", "Dağlarda döyüş", "Ən vacib müsahibə", "Gözlə məni", "İstintaq", "İstintaq davam edir", "İşarəni dənizdən gözləyin", "Qanun naminə", "Qara gölün cəngavərləri", "O qızı tapın", "Babək", "Bakıda küləklər əsir", "Mən ki gözəl deyildim", "Səmt küləyi", "Qatır Məmməd", "Qəm pəncərəsi", "Qəzəlxan", "Sevinc buxtası", "Nəsimi", "Son döyüş", "Şahid qız", "Şeytan göz qabağında", "Şərqin səhəri", "Təkcə adanı özünlə apara bilməzsən...", "Tütək səsi", "Yeddi oğul istərəm..." və digər filmlərdə canlandırdığı rollarla kinosevərlərin sevimli aktyoru olub.

Aktyorun istedadı və əməyi yüksək qiymətləndirilib. O, 1982-ci ildə Əməkdar artist, 1998-ci ildə isə Xalq artisti fəxri adları ilə təltif olunub, 1984-cü ildə Dövlət mükafatına, Azərbaycan Teatr Xadimləri İttifaqının təsis etdiyi "Sənətkar" medalına, 2010-cu ildə isə Cəfər Cabbarlı mükafatına layiq görülüb. 2019-cu ildə "Şöhrət" ordeni ilə təltif olunub. Prezident təqaüdçüsüdür. 2023-cü il avqustun 14-də isə 80 yaşlı sənətkar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycanda teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Xəbər

# Bütün zamanların sənətkarı



**Bəşəriyyət tarixində elə şəxsiyyətlər var ki, sağlığında olduğu kimi, əbədiyyətə qovuşduqdan sonra da ölümsüzlük qazanır, adları ehtiramla yad edilir. Çünki həmin şəxsiyyətlər yaradıcılıqları ilə nəinki xalqına, bütün bəşəriyyətə xidmət edirlər.**

Belə parlaq şəxsiyyətlərdən biri də bu il anadan olmasının 81-ci ildönümü nəinki doğulduğu Azərbaycanda, həm də dünyanın bir çox yerlərində qeyd edilən SSRİ-nin və Azərbaycanın Xalq artisti Müslüm Maqomayevdir.

On dörd yaşında doğma şəhəri Bakıda Dənizçilər klubunda çıxış edən Müslüm Maqomayev ilk uğurunu 1962-ci ildə qazanıb. Maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya Festivalına yollanan Müslüm oradan medalla qayıdıb.

Müslüm Maqomayev XX əsrin 60-cı illərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti olub, Milanın dünyaşöhrətli "La Skala" teatrında təcrübə keçib.

Keçmiş SSRİ-də klassik opera ariyalarını estradaya məhz Müslüm Maqomayev gətirib. Təsadüfi deyil ki, o, 31 yaşında SSRİ Xalq artisti fəxri adına layiq görülüb.

Dünyaşöhrətli müğənninin repertuarında 600-dək əsər var. O həm də gözəl mahnılar müəllifidir. Müslüm Maqomayevin ecazkar səslə ifa etdiyi mahnıların sırasında dahi Üzeyir Hacıbəylinin Nizami Gəncəvinin qəzəllərinə bəstələdiyi "Sənsiz" və "Sevgili canan" romanslarının xüsusi yeri var.

Onun Xalq şairi Nəbi Xəzrinin sözlərinə bəstələdiyi və dillər əzbəri olan, vətənimizin himni kimi əzəmətli səslənən "Azərbaycan" mahnısı da ölkəmizə ithaf olunmuş ən gözəl əsərlərdəndir. Müğənni həm də "Oxuyur Müslüm Maqomayev", "Nizami", "Moskva notlarda" filmlərində çəkilib.

Azərbaycan xalqının zəngin musiqi ənənələrinin qorunub saxlanılmasında və müasir dövrdə layiqincə inkişaf etdirilməsində Müslüm Maqomayevin yaratdığı və rəhbərlik etdiyi Azərbaycan Dövlət Estrada-Simfonik Orkestri mühüm rol oynayıb.

M.Maqomayevin milli musiqi mədəniyyətimizin inkişafı sahəsində mühüm nailiyyətləri yüksək qiymətləndirilib və o, müstəqil Azərbaycanın ali mükafatları - "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif edilib. Ecazkar səsi ilə dünyanı fəth edən Müslüm Maqomayevin 70 illik yubileyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə silsilə tədbirlərlə qeyd olunub.

Onun yoxluğunun acısını daha çox hiss edən sənətkarın ömür-gün yoldaşı, SSRİ Xalq artisti, məşhur opera müğənnisi Tamara Sinyavskaya deyir: "Müslüm Maqomayevi yığcam, qısa fikirlərlə təsvir etmək çətindir. O, böyük insan idi. Həyatımın müxtəlif illəri onunla birgə keçmişdir. Fikirlərini mənimlə bölüşərdi. O anlar mənim üçün unudulmaz olduğu qədər də əlçatmazdır. Müslüm Maqomayev ad gününü böyük salonlarda, hay-küylü keçirməyi xoşlamazdı, ancaq dostlarının əhatəsində qeyd edərdi. Hədiyyələri bir o qədər də sevməzdi. Ad günündə onun haqqında gözəl sözlər deyərdilər. Mən bunların şahidi olmuşam. Müslüm Maqomayev bütün dövrlərin musiqiçisidir və ikinci belə bir sənətkar dünyaya gəlməyəcəkdir".

Müslüm Maqomayev qəlblərdə elə bir sənət abidəsi ucaldıb ki, onu sevənlərin sayı heç zaman azalmayacaq.





● Bakı Xoreoqrafiya Akademiyası - 100

# Ənənələrinə sadiq qalan tədris ocağı

**Bura Azərbaycan xoreoqrafiya sənətinin bünövrəsinin qoyulduğu tədris ocağıdır. Zaman keçsə də, adı, ünvanı dəyişsə də, əsas məqsədindən uzaqlaşmayıb. Bu məktəb xoreoqrafiya sənətinin sirlərini öyrətməkdə davam edir...**

Bakıda Balet Studiyası Azərbaycan Sovet Sosialist Respublikası (SSR) Xalq Maarif Komissarlığı Kollegiyasının 29 aprel 1922-ci il tarixli iclasının qərarı ilə Əli Bayramov adına Mərkəzi Klubun nəzdində yaradılıb. 1923-cü il avqustun 18-də Xalq Maarif Komissarlığı Kollegiyasının qərarına uyğun olaraq, respublikamızın paytaxtında ritm və rəqs studiyası açılıb və Balet studiyası adlandırılıb. Həmin studiya 1929-cu ildə Xalq Maarif Komissarlığı Kollegiyasının qərarına əsasən, Bakı Xoreoqrafiya Məktəbinə çevrilib. Bu tədris ocağında təhsil alan şagirdlərin sayı 1933-cü ildə 157-yə çatıb və təhsil müddəti 4 ildən 9 ilə qaldırılıb.

Bakı Xoreoqrafiya Məktəbi 1935-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarları Şurasının qərarı ilə Bakı Xoreoqrafiya Texnikumu, 1962-ci ildə isə Azərbaycan SSR Nazirlər Sovetinin Ali və Orta İxtisas Təhsili Komitəsinin qərarı ilə Azərbaycan SSR Mədəniyyət Nazirliyi nəzdində Bakı Xoreoqrafiya Məktəbi adlandırılıb.

Bakı Xoreoqrafiya Məktəbində xalqımızın zəngin milli rəqs ənənələrinin qorunması, Azərbaycan rəqslərinin peşəkar şəkildə öyrədilməsi, təbliğ olunması zərurəti nəzərə alınaraq 1960-cı illərdə Xalq bölməsi fəaliyyətə başlayıb. Azərbaycanın Əməkdar və Xalq artisti fəxri adlarına layiq görülmüş rəqs ustaları - Xumar Zülfüqarova, Afaq Məlikova, Roza Cəlilova, Cəmilə Bayramova, Səbinə Qasımova, Elizbar Osmanov və başqaları həmin illərdə bu Xalq bölməsində təhsil alıblar.

Prezident İlham Əliyev 2014-cü il aprelin 30-da Azərbaycan Respublikasında xoreoqrafiya sənəti ənənələrinin qorunması və inkişaf etdirilməsi zərurətini nəzərə alaraq, bu sahə üzrə yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədilə sərəncam imzalayıb. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyimiz sərəncamı ilə Bakı Xoreoqrafiya Məktəbinin bazasında Bakı Xoreoqrafiya Akademiyası yaradılıb və fəaliyyətə başlayıb. 26 dekabr 2014-cü il tarixli 432 nömrəli fərmanla təsdiq olunmuş Nizamnaməsinə əsasən, akademiya ümumi təhsil (ibtidai, ümumi orta və tam orta təhsil), orta ixtisas və ali təhsil (bakalavr, magistr, doktorantura) pillələri üzrə təhsil proqramı və əlavə təhsilin müvafiq istiqamətlərini (ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşməsi, təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi) həyata keçirir.

Bakı Xoreoqrafiya Akademiyasında 7 kafedra və akademiyanın ali qərarverici orqanı olan Elmi Şura fəaliyyətə başlayıb. Eyni zamanda akademiyanın Bədii Şurası, Elmi-Metodiki Şurası, kollec və tam orta məktəbin Pedaqoji şuraları fəaliyyətdədir. Bu təhsil müəssisəsində mütəmadi olaraq elmi-praktik konfranslar, respublika səviyyəsində müsabiqələr, görkəmli sənətkarların yubiley gecələri təşkil edilir.

2016-cı ildən Qəmər Almaszadə adına Klassik və Milli Rəqs üzrə Birinci Beynəlxalq Müsabiqənin təsis edilməsi və keçirilməsi Bakı Xoreoqrafiya Akademiyasının ən böyük uğurlarından biri hesab olunur. Azərbaycan balet məktəbinin yaradıcılarından biri, ilk qadın balet ustası Qəmər Almaszadənin adını daşıyan bu müsabiqənin təşkil olunmasında məqsəd milli və klassik rəqs irsinin, habelə dünya xalq rəqslərinin nəsildən-nəslə ötürülməsi və təbliği, yetişməkdə olan gənc istedadların tanınması və bacarıqlarının nümayiş etdirilməsi, milli balet və xalq rəqsləri məktəbinin respublika və beynəlxalq miqyasda təbliğ olunmasıdır.

Birəsrlik tarixi olan bu tədris ocağı Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafında böyük rolu və xidmətləri olan neçə-neçə balerinalar, rəqqaslar yetişdirib. Azərbaycanın və Şərqin birinci böyük ustad balerinası Qəmər Almaszadə ilk təhsilini burada alıb. Milli xoreoqrafiya məktəbinin digər ustad sənətkarları - Leyla Vəkilova, Konstantin Bataşov, Xumar Zülfüqarova, Rəfiqə Axundova, Maqsud Məmmədov, Vladimir Pletnev, Çimnaz Babayeva, Vitali Axundov, Afaq Məlikova, Mədinə Əliyeva, Təranə Muradova və onlarca tanınmış rəqqas bu məktəbdə sənətin sirlərinə yiyələniblər. Onlar Azərbaycan xoreoqrafiya sənətini dünyada layiqincə təmsil ediblər. Onların böyük sənətini hazırda gənc nəslin tanınmış nümayəndələri davam etdirirlər.

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azercell

# Fakturasız (SimSim) xətt abunəçilərinin nəzərinə

19 sentyabr 2023-cü ildən etibarən "Azercell Telekom" MMC-nin fakturasız (SimSim) xətt sistemində abunəçilərə təqdim edilən "GəncOL2" tarif paketinin adı dəyişdiriləcək "GəncOL Həftəlik" adlandırılacaq. Həftəlik abunə haqqı 2,90 AZN müəyyən ediləcək və tarif paketindən daha əlverişli istifadə şərtləri təqdim olunacaq.

Fakturasız (SimSim) xətt sisteminə aid abunəçilərin istifadəsində olan nömrələr üçün "GəncOL Həftəlik" tarif şərtləri:

| Tarif | Tarifdaxili dəqiqələrin sayı | İnternet həcmi |
|---|---|---|
| "GəncOL Həftəlik" | 100 | 1 GB |

Qeyd: Qiymətlər ƏDV daxil göstərilib. Hesablama interval zəng üçün 60 saniyə, internet üçün 51 KB təşkil edir.

Abunəçilər göstərilən dəyişikliklər, tarif paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.





# Nicat Abasovun rəqibi beşqat dünya çempionudur

## Magnus KARLSEN: "Bizi maraqlı mübarizə gözləyir"

**Bakıda keçirilən şahmat üzrə Dünya Kubokunda yarımfinalçılar müəyyənləşib. Dünyada tanınmış bir sıra güclü qrossmeysterləri məğlubiyyətə uğratmış Azərbaycan təmsilçisi - 28 yaşlı Nicat Abasov da bu mərhələdə iştirak etmək hüququ qazanaraq adını ilk dördlüyə yazdırmağı bacarıb. Yarımfinalda şahmatçımızın rəqibi beşqat dünya çempionu Maqnus Karlsen (Norveç) olacaq.**





Nicat Abasov 1/4 final mərhələsinin cavab oyununda Hindistan təmsilçisi Vidit Qucrati üzərində qazandığı qələbədən sonra təəssüratlarını bölüşüb: "Cavab oyununa adi qaydada hazırlaşmışdım. Oyun vaxtı konsentrasiyanı saxlamağa çalışırdım. Rəqib müəyyən səhvlər etdi, bu vəziyyət təşəbbüsü ələ almağıma şərait yaratdı. Nəticədə qalib gələrək mübarizəni davam etdirmək imkanı qazandım. Əlbəttə, turnirdən öncə bu qədər irəliləyəcəyimi gözləmirdim. Amma insanların dəstəyi, şahmat həvəskarlarının göstərdiyi diqqət mənə əlavə güc verdi. Hamıya təşəkkür edirəm. Azərbaycan xalqının dəstəyini hiss edirəm. Gözəl duyğudur. Bu dəstək mənə stimul verir. Yorulanda çıxışımla bağlı yazılan dəstək sözlərini oxuyuram, bir qədər dincəlmiş oluram".

İstirahət günü barədə xüsusi planının olmadığını deyən şahmatçı yarımfinal barədə fikirlərini bildirib: "Maqnus Karlsenlə klassik şahmat oynamamışam. Yoldaşlıq oyunları olub. Yəni rəsmi turnirlərdə klassik partiyada mübarizə aparmamışıq. Əlimdən gələni etməyə çalışacam. Ümid edirəm nəticə yaxşı olacaq".

Karyerasında ilk dəfə turnirin yarımfinalına vəsiqə qazanan Azərbaycan şahmatçısı Nicat Abasovun rəqibi, beşqat dünya çempionu və dünya reytinqinin lideri Maqnus Karlsen turnirin rəsmi saytına açıqlamasında hindistanlı Qukeşə qarşı 1/4 final görüşü barədə fikirlərini bildirib: "Fərqli oyun oldu. Debütdən aşkar irəliləyiş görmədim. Sonra oyunun ortalarında kiçik üstünlük hiss olunurdu. Yekunda heç-heçəyə razılaşdıq. İlk görüşdə qalib gəlmişdim. Ümumi nəticə yarımfinalda iştirakımı dəqiqləşdirdi".

Norveçli qrossmeyster yarımfinaldakı rəqibi - azərbaycanlı şahmatçı Nicat Abasovla bağlı verilən suala belə cavab verib: "Nicat güclü şahmatçıdır. Dünya Kubokunda göstərdiyi oyun bu sözləri deməyə imkan verir. Bizi maraqlı mübarizə gözləyir".

Sonda Maqnus Karlsen növbəti dəfə Azərbaycan paytaxtına gəlməkdən məmnun olduğunu söyləyib və Dünya Kubokunun yüksək təşkilatçılığını qeyd edib: "Yenidən Bakıda olmaq xoşdur. Təşkilatçılıq yaxşıdır. Buradan gözəl təəssüratlarla ayrılacam".

Qeyd edək ki, Dünya Kubokunda yarımfinal oyunlarının ilk partiyaları avqustun 19-da keçiriləcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Atıcılıq üzrə Dünya Çempionatının ilk qalibləri müəyyənləşib

Atıcılıq üzrə Dünya Çempionatının ilk qalibləri müəyyənləşib. Bu barədə AZƏRTAC-a Azərbaycan Atıcılıq Federasiyasından məlumat verilib. Bildirilib ki, Bakıda Atıcılıq üzrə Dünya Çempionatının ilk yarışları keçirilib. Olimpiya növü olan pnevmatik tapançadan 10 m məsafəyə atəş üzrə yarışda kişilər arasında mübarizədə həm fərdi, həm də komanda halında çinlilər üstünlüklərini nümayiş etdiriblər. Fərdi növdə qızıl medalı 244.3 xalla Çin yığmasının üzvü Boven Janq qazanıb. Gümüş medal 240.8 xal toplayan serbiyalı Damir Mikeç, bürünc medal isə 215.7 xal yığan bolqar Kiril Kirova çatıb.

Komanda növündə də ilk yeri çinlilər tutub və qızıl medala sahibləniblər. Komanda növündə gümüş medala Almaniya komandası, bürünc medala Hindistan komandası sahiblənib.

# "Qarabağ" klubu pley-off mərhələsinə yüksəlib

**Ağdamın "Qarabağ" klubu avqustun 17-də UEFA Avropa Liqasının III təsnifat mərhələsinin cavab oyununda Finlandiyanın "HİK" komandası ilə qarşılaşıb.**

"Bolt Arena"da keçirilən görüşdə ağdamlılar hesabda geri düşmələrinə baxmayaraq, oyunu qələbə ilə başa vurmağa nail olublar - 2:1.

Ev sahibləri matçın 10-cu dəqiqəsində Santeri Hostikkanın qolu ilə hesabı açıblar. Qoldan 6 dəqiqə sonra "HİK" futbolçuları meydanda sayca azlıqda qalıblar. Kevin Kuassivi-Benissan qırmızı vərəqə ilə cəzalandırılaraq oyundan kənarlaşdırılıb. "Qarabağ" birinci hissənin sonunda (45+3) istəyinə çatıb. Belə ki, Tural Bayramov 11 metrlik cərimə zərbəsini dəqiq yerinə yetirib - 1:1.

İlk hissə bu hesabla başa çatıb.

Fasilədən sonra da hücumları davam etdirən ağdamlılar 56-cı dəqiqədə Yassin Benzianın qolu ilə hesabda irəli çıxıblar - 2:1. Oyunun sonunadək ağdamlılar bu hesabı qoruyub saxlayıblar.

Bakıda keçirilmiş oyunda da eyni hesabla qalib gələn "Qarabağ" UEFA Avropa Liqasının pley-off mərhələsinə yüksəlib. Bu mərhələdə ağdamlıların rəqibi Sloveniyanın "Olimpiya" komandası olacaq.

***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC tabeliyində olan struktur idarələr üçün elektrik mallarının satın alınması məqsədilə açıq müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 31 avqust 2023-cü il saat 17:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1177.**

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*






Təkrar

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi təhsil müəssisələri üçün kompüter və noutbukların satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qeydiyyatdan keçdiyi ölkə (Təqdim olunması məcburidir. Dövlət reyestrindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib əlavə edilməlidir);*
- *nizamnamə (Təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *rekvizitlər (Təqdim olunması məcburidir. Müvafiq sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təqdim olunması məcburidir. Son aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq edilmiş sənəd əlavə edilməlidir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 01.08.2023-cü il tarixdən sonra alınmış arayış əlavə edilməlidir);*
- *iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təqdim olunması məcburidir);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd əlavə edilməlidir);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.08.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 01.08.2023-cü il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (Vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1) (Təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).*

İcraçı malların korlanmadan və zədələnmədən sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 90 təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 08.09.2023-cü il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 18.09.2023-cü il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 19.09.2023-cü il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan süzgəclərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 avqust 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


# ALLAH RƏHMƏT ELƏSİN!

Gənclər və İdman Nazirliyinin kollektivi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının prorektoru Təhminə Tağı-zadəyə həyat yoldaşı

**ƏKBƏR ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi akademiyanın prorektoru Təhminə Tağı-zadəyə həyat yoldaşı

**ƏKBƏR ADİL OĞLU ZEYNALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 5448
Sifariş 2058

Qiyməti 40 qəpik